QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim
üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 119 (5839) **5 iyul** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Dövlət sahibkarlar üçün ən yaxşı tərəfdaşdır"

*Prezident İlham Əliyevdən sahibkarlara növbəti mühüm dəstək*



Səh 2

Novruz Məmmədov Neft Fondunun Müşahidə Şurasının sədri seçilib



3

"Heydər Əliyev Azərbaycan gəncliyinin düşüncəsində - 50 il"



4

Stefan Şennak: "AŞPA Azərbaycan ilə əməkdaşlığın möhkəmlənməsində maraqlıdır"



3

Azərbaycan KİV rəhbərləri Rusiya Xarici İşlər Nazirliyində olublar



6

Əməkhaqqı artımı ilə əlaqədar 94 min nəfərin pensiyası 30 faizdən çox artacaq



6

Cənubi Qafqazda geosiyasi dəyişikliklər: Con Bolton Ermənistana qarşı



8

10

Mübariz Əhmədoğlu: "Paşinyan Ermənistanın siyasi elitasının savad və səviyyə barometridir"



9

"Gəncə hadisələrini gündəmə gətirməklə gərginlik yaratmaq istəyirlər"



14

Əli Kərimli ilə Sevinc Osmanqızı kimi əxlaqsızlar çirkaba bulaşıblar



# "Dövlət sahibkarlar üçün ən yaxşı tərəfdaşdır"

## *Prezident İlham Əliyevdən sahibkarlara növbəti mühüm dəstək*

***Ölkə Prezidenti İlham Əliyev dəfələrlə vurğulayır ki, ölkəmizdə uğurlu iqtisadi islahatların əldə edilməsində özəl sektorun, milli sahibkarlar təbəqəsinin rolu kifayət qədər böyükdür. Ötən müddətdə kiçik və orta sahibkarların güzəştli kreditlərlə təmin olunması, sahibkarların fəaliyyətinə yersiz müdaxilələrin qarşısının alınması, özəl sektorda inkişafa mane olan süni problemlərin həlli istiqamətində bir sıra mühüm addımlar atılmışdır. Dövlət rəhbəri inhisarçılıq, sahibkarlara süni maneələrin yaradılması, hüquq-mühafizə orqanlarının iş adamlarının fəaliyyətinə müdaxilə hallarını pisləmiş, bu münasibət konkret qərarlarla müşayiət olunur.***

Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramının təsdiqlənməsi, şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın təsdiqlənməsi, biznes subyektlərinin qeydiyyatı və lisenziya sisteminin sadələşdirilməsi, yerlərdə regional iqtisad və apellyasiya məhkəmələrinin yaradılması kimi tədbirlər bunun əyani təcəssümüdür. Belə ki, son illər özəl sektorun ümumi daxili məhsul istehsalındakı xüsusi çəkisinin 85 faizə çatması da respublikamız üçün kifayət qədər böyük göstəricidir. Prezident İlham Əliyev özəl sektorun dinamik inkişafına təkcə sosial-iqtisadi yüksəliş xəttinin deyil, həm də demokratikləşmə prosesinin ardıcıllığını, vətəndaş hüquq və azadlıqlarının etibarlı şəkildə qorunmasını təmin edən başlıca vasitələrdən biri kimi yanaşır.

### Sahibkarlara siyasi və maddi dəstək

Respublikamızda sahibkarlığın inkişafına mane olan süni maneələrin aradan qaldırılması istiqamətindəki fəaliyyətinin ardıcıl və davamlı səciyyə daşıdığını Prezident İlham Əliyevin 30 aprel 2007-ci il tarixdə imzaladığı "Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanı bir daha təsdiqləyir. Bu Fərmanla indiyə qədər çoxpilləli biznesə başlamaq sahəsində mövcud problemlərin həlli, o cümlədən, süründürməçilik hallarının, bürokratik əngəllərin aradan qaldırılması nəzərdə tutulubdur. Bu məqsədlə vahid kodlaşdırmanın aparılması, biznes strukturlarının "bir pəncərə" - vahid qeydiyyat orqanı tərəfindən qeydə alınması məsələləri əksini tapıbdır.

Bütün bu nailiyyətlər, onu deməyə əsas verir ki, Azərbaycanda sahibkarların, iş adamlarının etibarlı himayədarına çevrilmiş Cənab İlham Əliyevin reallaşdırdığı məqsədyönlü siyasət hesabına özəl sektor yeni inkişaf dönəminə qədəm qoymaqla, sahibkarlığın inkişafına diqqət daha da artırılıbdır. Məhz elə buna görədir ki, qeyri-neft sektorunun inkişafı üçün həyata keçirilən iqtisadi strategiya uğurla davam etdirilir. Prezident İlham Əliyevin "Sahibkarlığın dəstəklənməsi məqsədilə xarici dövlətlərin və beynəlxalq təşkilatların maliyyələşdirdikləri proqramların əlaqələndirilməsi haqqında" imzaladığı növbəti Fərmana əsasən, kiçik və orta biznesin inkişafı agentliyinin səlahiyyətlərinin artırılacağı bildirilir. Fərmana əsasən, xarici dövlətlərin və beynəlxalq təşkilatların Azərbaycan Respublikasında mikro, kiçik və orta sahibkarlığın dəstəklənməsi məqsədilə kredit, texniki yardım və ya qrant formasında maliyyələşdirdikləri proqramlar Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə əlaqəli şəkildə həyata keçiriləcək. Fərmanda qeyd olunan bir sıra istiqamətlər sahibkarlığın dəstəklənməsinə əhəmiyyətli dərəcədə təsir göstərəcək.

### Dövlət sahibkarlar üçün ən yaxşı tərəfdaşdır



Sahibkarlığın inkişafı, biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması ilə bağlı həyata keçirilən sistemli tədbirlər 2018-ci ildədə uğurlu nəticələr verir.

Prezident İlham Əliyevin dünya ölkələrinin qabaqcıl təcrübəsinin ölkəmizə gətirilməsi, müasir texnologiyaların tətbiqinə əsaslanan istehsal, emal, infrastruktur sahələrinin yaradılması istiqamətində verdiyi göstərişlər və tapşırıqlar Azərbaycan iqtisadiyyatının daha da şaxələnməsini təmin edib. Bu xüsusda, onu da vurğulaya bilərik ki, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən diqqət və qayğı bu prosesi daha da genişləndirib. Ötən ilin dekabrında dövlət başçısının kiçik və orta sahibkarlığın inkişafına dövlət dəstəyinin daha da gücləndirilməsinə dair imzaladığı mühüm Fərman Prezident İlham Əliyevin bu sahəyə nə qədər diqqət göstərdiyini bir daha təsdiqlədi.





"Dövlət sahibkarlar üçün ən yaxşı tərəfdaşdır" deyən Azərbaycan Prezidenti, hələ bir neçə il öncə, hər bir sahə üzrə konkret proqramların, planların və böyük maliyyə resurslarının olduğunu söyləyəndə, məhz belə layihələri nəzərdə tuturdu.

Bu ilin iyun ayında isə Prezident İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında Fərman imzalayaraq, qurumun nizamnaməsi və strukturunu təsdiqlədi.

Düzdür, hazırda Azərbaycanda müxtəlif dövlət orqanları öz səlahiyyətləri çərçivəsində, kiçik və orta sahibkarlıq subyektlərinə müxtəlif xidmətlər (o cümlədən, məsləhət xidməti, satış və digər istiqamətlər üzrə dəstək) göstərirlər. Bununla belə, beynəlxalq təcrübəyə əsasən, kiçik və orta sahibkarlıq subyektlərinə belə xidmətlərin vahid mərkəzdən göstərilməsi onların həmin xidmətlərdən daha səmərəli istifadəsinə və beləliklə, inkişafına yaxşı imkan yaradır. Buna görə də, KOB İnkişafı Agentliyinin yaradılması mühüm əhəmiyyət kəsb edir. Agentliyin əsas məqsədi kiçik və orta sahibkarların dostuna çevrilməsi və eyni zamanda sahibkarlığın hüquqi təminatının gücləndirilməsi, regionlarda sahibkarlığın inkişafına əlverişli şərait yaradılması əsasında dayanıqlı inkişafın təmin edilməsidir.

### Orxan Məmmədov: "Hədəfimiz qurumu sahibkarın dostu kimi önəmli missiyanın daşıyıcısına çevirməkdir"

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sahibkarlığın inkişafı, bu istiqamətdə həyata keçirilən tədbirlər barədə məlumat verərək, bildirib ki, agentliyin yaradılması dövlət başçısı tərəfindən sahibkarlığın inkişafına göstərilən diqqət və qayğının daha bir göstəricisidir: "Agentliyin missiyası kiçik və orta biznesin tənzimlənməsi sahəsində effektivliyin artırılması, çoxsaylı dəstək mexanizmlərinə sahibkarların rahat çıxışının təmin edilməsi, biznes subyektlərinin maraqlarının müdafiəsi əsasında bu sektorun davamlı inkişafının təmin edilməsindən ibarətdir. Hədəfimiz qurumu sahibkarın dostu kimi önəmli missiyanın daşıyıcısına çevirməkdir".

O.Məmmədov bildirib ki, "KOB Dostu"nun fəaliyyəti yeni kiçik və orta biznes sahələrinin yaranmasına, sahibkarlığın inkişafına yönəldiləcək. Bu məqsədlə potensial investisiya layihələri müəyyən ediləcək və onların KOB-lar vasitəsilə həyata keçirilməsi təşviq olunacaq. "KOB Dostu" sahibkarlara biznes planının hazırlanmasında yardımçı olacaq, eyni zamanda, sahibkarla dövlət strukturları, kredit təşkilatları arasında körpü rolunu oynayacaq. Kiçik və orta sahibkarın çətinliklərinin aradan qaldırılmasına hərtərəfli dəstək göstərəcək. Ümumiyyətlə, 10 iqtisadi rayon üzrə 60 "KOB Dostu" şəbəkəsi yaradılacaq və kiçik və orta biznesin hüquqlarının müdafiəsi istiqamətində fəaliyyət göstərəcək. Bir sözlə, əsas vəzifə sahibkarlara şəffaf, obyektiv və nəzakətlə fəaliyyət göstərməkdir.

Bütün bu nailiyyətlər, onu deməyə əsas verir ki, Azərbaycanda sahibkarların, iş adamlarının etibarlı himayədarına çevrilmiş Cənab İlham Əliyevin reallaşdırdığı məqsədyönlü siyasət hesabına özəl sektor yeni inkişaf dönəminə qədəm qoymaqla, sahibkarlığın inkişafına diqqət daha da artırılıbdır. Məhz elə buna görədir ki, qeyri-neft sektorunun inkişafı üçün həyata keçirilən iqtisadi strategiya uğurla davam etdirilir.

***R.KAMALQIZI***

# Novruz Məmmədov Neft Fondunun Müşahidə Şurasının sədri seçilib



Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) Müşahidə Şurasının iclası keçirilib. SİA xəbər verir ki, ARDNF-nin Müşahidə Şurasının qərarı ilə Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov növbəti müddətə Müşahidə Şurasının fəaliyyətdə olan sədri seçilib.

İclasda, həmçinin ARDNF-nin 2018-ci il üzrə maliyyə fəaliyyəti haqqında illik hesabatına, ARDNF-nin 2018-ci il büdcəsinin icrası barədə məsələlərə baxılıb. Müşahidə Şurası tərəfindən ARDNF-nin 2018-ci ildə maliyyə fəaliyyəti haqqında hesabatına dair müstəqil auditorun ("PraysvoterhausKupers Audit Azərbaycan" MMC) rəyi, 2018-ci il büdcəsinin icrası barədə Azərbaycan Respublikası Hesablama Palatasının rəyi, habelə ARDNF-nin 2018-ci il büdcəsinin gəlirlərinin 17 614,1 milyon manat və yaxud 115 faiz səviyyəsində, büdcə xərclərinin isə 11 455,6 milyon manat və ya 99,8 faiz səviyyəsində icra edildiyi nəzərə alınaraq, ARDNF-nin 2018-ci il büdcəsinin icrasının təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi qərara alınıb.

Müşahidə Şurası tərəfindən eyni zamanda, ARDNF-nin fəaliyyətini tənzimləyən normativ hüquqi aktlarda ARDNF-nin maliyyə və büdcəsinin icrası barədə hesabatların son təqdim edilməsi müddətində dəyişikliklərin edilməsi məqsədəuyğun hesab edildi və bu dəyişikliklərin Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi tövsiyə edilib.

# "Əli Əhmədovun təşəbbüsü cəmiyyət tərəfindən dəstəklənir"



Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi sədrinin müavini Əli Əhmədovun Silahlı Qüvvələrə Yardım Fonduna dəstək aksiyasına mən də qosulmuşam. SİA-nın verdiyi məlumata görə, bunu jurnalistlərə açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.

M.Qurbanlı vurğulayıb ki, Silahlı Qüvvələrə Yardım Fonduna dəstək göstərmək hər bir vətəndaşın borcudur. Onun sözlərinə görə, YAP sədrinin müavini Əli Əhmədovun təşəbbüsü cəmiyyət tərəfindən dəstəklənir, müdafiə olunur: "Hər bir partiya üzvü də öz imkanı çərçivəsində bu yardım kampaniyasında iştirak edir".

# Milli Məclisin nümayəndə heyətinin rəhbəri ATƏT PA-nın sessiyasında çıxış edib



Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının (ATƏT PA) 28-ci illik sessiyası çərçivəsində ATƏT PA-nın Daimi Komitəsinin iclası davam edir. Təşkilatın sədri Georgi Seretelinin məruzəsi ətrafında çıxışlar başlanıb.

Çıxış üçün söz alan Azərbaycan nümayəndə heyətinin rəhbəri, Milli Məclisin sədrinin müavini Bahar Muradova qeyd edib ki, davamlı inkişaf sülhün, sabitliyin, firavanlığın, demokratiyanın və insan haqlarının müdafiəsinin təmin edilməsi üçün zəruri şərtdir. Siyasətçi 2030-cu ilə qədər yoxsulluğun aradan qaldırılmasına və iqlimin müdafiəsinə yönəlmiş təxirəsalınmaz tədbirlər görməyə, habelə zorakı ekstremizmin, kütləvi miqrasiyanın və münaqişələrin qarşısının alınması məqsədi ilə dialoqa şərait yaratmağa çağırıb.

"Terrorizmə, korrupsiyaya və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə təhlükəsizlik sahəsində gündəliyimizin əsas mövzusu olaraq qalır", - deyən B.Muradova daha sonra xatırladıb ki, Azərbaycanın təşəbbüsü ilə ATƏT PA-nın himayəsi altında İpək Yoluna Dəstək Qrupu və Bakı Parlament Platforması yaradılıb. Azərbaycan nümayəndə heyətinin rəhbəri vurğulayıb: "Məhz milli, regional və qlobal miqyaslı bu cür təşəbbüslər 2030-cu il gündəliyinin hədəflərinə nail olmaqda parlamentarilərin rolunun artırılmasına şərait yaradacaq".

# Valeri Semerikov: "Qarabağ münaqişəsinin nizama salınmaması KTMT-yə üzv ölkələri narahat edir"



Dağlıq Qarabağ münaqişəsinin nizama salınmaması Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv ölkələri narahat edir. AZƏRTAC xəbər verir ki, bu fikri KTMT-nin baş katibi vəzifəsini icra edən Valeri Semerikov Moskvada keçirdiyi mətbuat konfransında səsləndirib.

V.Semerikov Cənubi Qafqaz regionunda Dağlıq Qarabağ münaqişəsinin davam etməsinin təhlükəli cəhətləri ilə bağlı jurnalistin sualına cavabında deyib: "Qafqaz istiqamətində Qarabağ münaqişəsinin nizama salınmaması, həmçinin NATO-nun Gürcüstan ərazisini hərbi təsiri altına alması prosesi ucbatından gərginlik davam edir". O əlavə edib ki, KTMT-yə üzv ölkələrin Nazirlər Şurasının Qarabağ münaqişəsinin nizama salınmasının müzakirə olunmadığı heç bir iclasını xatırlamır. Semerikovun sözlərinə görə, bugünədək bu məsələ ilə əlaqədar Kollektiv Təhlükəsizlik Şurası və xarici işlər nazirləri səviyyəsində bir neçə bəyannamələr qəbul olunub. "Demək olar ki, hər il yaranan vəziyyətlə əlaqədar bu məsələyə dair müvafiq bəyannamələr qəbul edilir"", -deyə o vurğulayıb.

# Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın inkişafı üçün geniş perspektivlər var



İyulun 4-də Baş Nazirin müavini Əli Əhmədov Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskasla görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə Şərq Tərəfdaşlığı çərçivəsində Avropa İttifaqının yardımı hesabına Azərbaycanda həyata keçirilən layihələrin icra vəziyyəti müzakirə olunub. Ölkəmizdə həyata keçirilən layihələrə Avropa İttifaqının göstərdiyi dəstəyə görə minnətdarlığını bildirən Əli Əhmədov qarşılıqlı faydalı əməkdaşlığın davam etdirilməsi üçün hökumət tərəfindən bütün zəruri addımların atıldığını qeyd edib. Baş Nazirin müavini Azərbaycan ilə Avropa İttifaqı arasındakı əməkdaşlığın mövcud durumundan bəhs edərək münasibətlərin inkişafı üçün geniş perspektivlərin olduğunu deyib.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas isə bildirib ki, Azərbaycan ilə Avropa İttifaqı arasında mövcud olan etibarlı tərəfdaşlıq əlaqələri xüsusi əhəmiyyətə malikdir. O, növbəti illərdə Fəaliyyət proqramları çərçivəsində Aİ-nin Azərbaycanda icra olunacaq yeni layihələrinin daha səmərəli və vaxtında həyata keçirilməsi üçün zəruri olan işlər haqqında fikirlərini də bildirib. Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

# Stefan Şennak: "AŞPA Azərbaycan ilə əməkdaşlığın möhkəmlənməsində maraqlıdır"



İyulun 4-də Milli Məclisdə təmsil olunan siyasi partiyaların rəhbərləri AŞPA Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçisi Stefan Şennak ilə görüşüblər. AZƏRTAC xəbər verir ki, görüşdə Yeni Azərbaycan Partiyası icra katibinin müavini Siyavuş Novruzov, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev, Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev, Sosial Demokrat Partiyasının sədri Araz Əlizadə, Vəhdət Partiyasının sədri Tahir Kərimli, Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev iştirak ediblər.

YAP icra katibinin müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov qonaqları salamlayaraq bu cür görüşlərin fikir mübadiləsinin aparılması baxımından əhəmiyyətli olduğunu söyləyib. Qeyd edilib ki, Azərbaycan AŞPA ilə əlaqələrə böyük önəm verir və gələcəkdə əməkdaşlığı daha da genişləndirmək niyyətindədir. Deputatlarımız təşkilatın keçirdiyi müxtəlif tədbirlərdə fəal iştirak edir, qurum çərçivəsində müzakirəyə çıxarılan məsələlərə obyektiv münasibət bildirirlər.

Görüşdə siyasi partiyaların rəhbərləri ölkənin ictimai-siyasi həyatındakı fəaliyyətləri barədə məlumat verib, qanun yaradıcılığı prosesində fəal iştirak etdiklərini söyləyiblər. Deputatlar Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikirlərini bildiriblər.

AŞPA Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçisi Stefan Şennak səfər çərçivəsində keçirdiyi görüşlərdən və apardıqları danışıqlardan bəhs edib. Bildirilib ki, AŞPA Azərbaycanda gedən demokratik prosesləri diqqətlə izləyir və ölkəmizlə əməkdaşlığın möhkəmlənməsində maraqlıdır. Söhbət zamanı Azərbaycan və Avropa Şurası arasında münasibətlər, monitorinq prosesinin gedişi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Görüşdə deputat, Yeni Azərbaycan Partiyasının üzvü Rauf Əliyev də iştirak edib.

# "Sessiya olduqca yüksək səviyyədə keçirilir"



"Ölkənizdə qonağa xüsusi hörmət görürəm. Bu həm də Rusiya-Azərbaycan münasibətlərinin, bizim dostluq əlaqələrimizin göstəricisidir". SİA-nın məlumatına görə, bu fikirləri UNESCO-nun Bakı sessiyasının rusiyalı iştirakçısı Nikolas Andreev bildirib.

Qonaq əlavə edib ki, Bakıya dəfələrlə gəlib və burada özünü olduqca rahat hiss edir: "Bakıda kilsədə və qədim abidələrinzdə oldum. Deyə bilərəm ki, öz ölkəmdə kimiyəm. Sessiya isə olduqca yüksək səviyyədə keçirilir. Ümid edirəm ki, sessiya Azərbaycan üçün çox uğurlu olacaq".

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

5 iyul 2019-cu il

# "Heydər Əliyev Azərbaycan gəncliyinin düşüncəsində - 50 il"

*Bu adda layihənin yekunu və eyniadlı portalın təqdimat mərasimində Baş nazirin müavini, YAP Sədrinin müavini-icra katibi Əli Əhmədov gəncləri Ulu Öndər Heydər Əliyev irsini dərindən mənimsəməyə, Prezidentimiz İlham Əliyevin ətrafında daha sıx birləşməyə çağırdı*

***Dünən Yeni Azərbaycan Partiyasının İcra Katibliyində "Heydər Əliyev Azərbaycan gəncliyinin düşüncəsində - 50 il" adlı layihənin yekunu və eyniadlı portalın təqdimat mərasimi keçirildi.***

Əvvəlcə tədbirdə Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən YAP Nəsimi rayon təşkilatı gənclər birliyinin sədri, layihənin koordinatoru Salman Salmanov bildirib ki, layihə Ulu Öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsinin 50 illiyinə həsr olunub. O, layihə və portal haqqında geniş məlumat verib və qeyd edib ki, gənclər bu layihədə fəal iştirak ediblər.





Tədbirdə çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov gənclərin həyata keçirdikləri layihəni yüksək qiymətləndirib: "Ulu Öndər Heydər Əliyevin fəaliyyətinə gənclərin düşüncələri əsasında qiymət verilməsi gözəl təşəbbüsdür. Müasir həyatın yeni imkanlarından istifadə edərək, gənclərin Ulu Öndər Heydər Əliyevin xidmətləri ilə bağlı öz fikirlərini bölüşmələri təqdirəlayiqdir. Düşünürəm ki, bu portal kifayət qədər məhşur olacaq. 3 mindən artıq gəncin bu layihəyə qatılması onların Ümummilli Lider Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərinə verdikləri böyük dəyərin göstəricisidir. Gənclərimizin layihədə iştirakı hələ də davam edir."

Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətlərindən danışan Əli Əhmədov deyib ki, müasir Azərbaycan tarixinin son 50 illik dövrü Heydər Əliyevin adı ilə bağlıdır və Heydər Əliyevin 1969-cu ildə Azərbaycan rəhbərliyinə seçilməsi tariximizin dönüş nöqtəsi kimi yaddaşlara həkk olunub: "Yaşlı nəsil yaxşı xatırlayır ki, 60-cı illərə qədər Azərbaycan bütün sahələrdə xoş olmayan günlərini yaşayırdı. İnsanların həyatı yaxşı deyildi. Nəticə etibarilə Azərbaycan keçmiş İttifaqın ən geridə qalmış respublikalarından biri idi. Ulu Öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə seçilməsindən çox qısa zaman sonra Azərbaycanda o zaman müşahidə olunan xoşagəlməz proseslərin qarşısı alında, iqtisadiyyat inkişaf etməyə başladı, çoxlu sayda sənaye müəssisələri yaradıldı. Ölkənin sənaye potensialı yüksəldi, kənd təsərrüfatında böyük dönüş başladı. Azərbaycanda çox güclü kənd təsərrüfatı və aqro-kompleksi yaradıldı. Ölkəmizdə üzümçülük, pambıqçılıq çox sürətlə inkişaf etdi. Bir tərəfdən, sənayenin və kənd təsərrüfatının inkişaf etdirilməsi, digər tərəfdən, müasir texnologiyalar əsasında, aqro- sənaye kompekslərinin yaradılması insanların rifahını köklü surətdə dəyişdi. Məhz o zamandan Azərbaycanın şəhərlərinin və kəndlərinin siması dəyişdi. Bakı şəhəri müasirləşdi, yeniləşdi. Çoxlu sayda mənzil tikildi."

Ə.Əhmədov, onu da vurğulayıb ki, təkcə sənaye və kənd təsərrüfatı deyil, elm və təhsil, səhiyyə də ciddi şəkildə inkişaf etdi. Çoxlu məktəblər, ali təhsil ocaqları yaradıldı: "Eyni zamanda, Azərbaycan gənclərinin keçmiş İtttifaqın ən nüfuzlu ali mktəblərində təhsil almalarına imkan yaradıldı. Bu gün ölkəmizdə ayrı- ayrı sahələrdə çalışıb davamlı inkişafa töhfələr verən şəxslərin böyk əksəriyyəti həmin kateqoriyanın insanlarıdır. Mədəniyyətin və incəsənətin inkişafına davamlı töhfələr verildi. Azərbaycan bir çox dəyərli elm, mədəniyyət və incəsənət adamları o dövün ən yüksək adlarına layiq görüldülər. Bütün bunların hamısı Ulu Öndər Heydər Əliyevin Azərbaycan qarşısında etdiyi möhtəşəm xidmətlərdir ki, bunların sayəsində ölkəmiz böyük bir inkişaf mərhələsi keçdi."

O da, vurğulanıb ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycan qarşısındakı xidmətləri yalnız iqtisadi inkişafla bitmirdi: "Milli şüurun inkişafı həmin dövrün ən xarakterik cəhəti idi. Azərbaycan xalqında özünə inam hissi artdı, gələcəyə daha böyük inamla baxdı. Bütün bunların hamısı milli özünüdərkin, milli qürurun ayrı-ayrı elmentləri olaraq, hər bir xalq üçün önəmli olan azadlıq hissinin möhkəmlənməsinə böyük təsir göstərir. Əzilən, özünü dərk edə bilməyən bir millətin azadlıq hissi ilə özünü dərk edən, öz qürunu ifadə edən bir millətin azadlıq hissələri, təbii ki, fərqli olur. Bu mənada, hesab edirəm ki, Ulu Öndər Heydər Əliyevin 70-ci illərin əvvəllərində Azərbaycana rəhbərlik etməsi və ölkəmizin mühüm inkişaf mərhələsinə qədəm qoyması Azərbaycanın milli özünü dərkinin çox vacib bir mərhələsini təşkil edir. Biz bunun nəticəsini sovet hökumətinin mövqeləri zəifləyəndə Azərbaycanda azadlıq ruhunun özünü aydın ifadə etməsində gördük. 90-cı illərin əvvələrində, Azadlıq meydanında möhtəşəm nümayişlər Azərbaycan xalqının milli ruhunun ifadəsi idi. Bu inkişaf olmasaydı, Azərbaycan xalqı özünü, bir millət olaraq, azad yaşamağa haqqı çatan toplum kimi dərk etməsəydi, yəqin ki, 80-ci illərin sonu - 90-cı illərin əvvəllərindəki milli azadlıq hərəkatı da, o vüsəti əldə etməzdi."

"Çox sevindirici haldır ki, müstəqil Azərbaycanın formalaşması, qüdrətinin artması missiyası da Ulu Öndər Heydər Əliyevin əzəmətli çiyinləri üzərində qərar tutmalı oldu" deyə söyləyən Ə.Əhmədov bildirib ki, Azərbaycan 90-cı illərin əvvəllərində müstəqilliyini Sovetlər Birliyinin dağılması ilə əldə etdi: "Amma yenə də ölkəmizin real müstəqil dövlət kimi formalaşması, təsdiqi Ulu Öndər Heydər Əliyevin xidməti kimi tariximizə yazılıb. 90-cı illərin əvvəllərində, Azərbaycan müstəqillik əldə etdikdən sonra, o dövrün iqtidarı Azərbaycanın müstəqil dövlət kimi formalaşmasını təmin etmək iqtidarında deyildi. Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ölkəmizi mövcud problemlərdən xilas etdi. Müstəqil Azərbaycan dövləti yarandı. Azərbaycanın siyasi sistemi formalaşdı. Ölkəmizin təhlükəsizliyi təmin edildi. Cəbhə xəttində atəşkəs əldə olundu. Azərbaycanın beynəlxalq əlaqələri formalaşdırıldı. Müstəqil dövlət kimi özünü dünyaya təqdim etdi. İqtisadi islahatlar həyata keçirildi. Neft strategiyasının əsası qoyuldu. Bunun nəticəsində, Azərbaycan iqtisadiyyatı böyük inkişaf mərhələsi yaşayır. Bugünkü Azərbaycanın iqtisadi bünövrəsi qoyuldu. Beləliklə, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 10 ildə yeni Azərbaycan quruldu."

Ə.Əhmədov , həmçinin vurğulayıb ki, Azərbaycan Ulu Öndər Heydər Əliyev siyasətinin uğurlarını yaşayır. Dövlətimizin başçısı İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, bu gün əldə etdiyimiz nailiyyətlər Ulu Öndər Heydər Əliyev siyasətinin nəticəsidir. Azərbaycan böyük uğurlar əldə edib.

"Əlbəttə, zaman öz düzəlişlərini etməyi tələb edir" fikrini ifadə edən Ə.Əhmədov vurğulayıb ki, bu düzəlişlər uğurla reallaşır: "Bütövlükdə, Azərbaycanın uğurlu inkişafının təməlində Heydər Əliyev siyasəti dayanır. Bu elə bir siyasət və strategiyadır ki, bunun əsasında Azərbaycan bundan sonra da uzun illər öz yüksəlişini təmin edəcək. Azərbaycan daha da qüdrətlənəcək və möhkəmlənəcək. Azərbaycan xalqının milli həmrəyliyi daha da güclənəcək və möhkəmlənəcək. Azərbaycanın dünya birliyində mövqeləri artacaq. Azərbaycan regional və beynəlxalq əhəmiyyətli layihələrin həyata keçirilməsində xüsusi fəallıq göstərir. Ölkəmiz bu layihələrin əsas təşəbbüsçüsü və iştirakçısıdır. Bütün bunlar, onu deməyə əsas verir ki, Heydər Əliyevin düzgün müəyyənləşdirdiyi siyasət və bu xəttin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində, Azərbaycan nisbətən gənc olan dövlətlər sırasında ən uğurlu dövlətdir. Azərbaycan bu illər ərzində, iqtisadiyyatını 3 dəfədən çox artırıb. İnsanların rifah halının yaxşılaşdırılması istiqamətində mühüm uğurlar əldə olunub. 2019-cu ilin 6 ayı ərzində, ölkəmizdə minimum əməkhaqqı və pensiyalar iki dəfə artırılıb. Digər kateqoriyadan olan vətəndaşlara yardımlar və güzəştlər də artırılıb. Azərbaycanın beynəlxalq əlaqələrinin inkişafı, əhəmiyyətli tədbirlərə ev sahibliyi etməsi nüfuzunun artmasında mühüm rol oynayır. Bu gün Azərbaycana çiçəklənən, perspektivi olan ölkə kimi yanaşılır və dəyər verilir. Bu, həm reytinq agentliklərinin, həm də ölkəmizə gələn xarici qonaqların verdiyi qiymətdir. Dünyanın heç bir yerində Bakı, ümumilikdə, Azərbaycan qədər müasirləşən və yeniləşən ölkəni təsəvvür etmək mümkün deyil. Bakımızın, Azərbaycanın simasının dəyişməsi mühüm nailiyyətdir. 50, 100 ildən sonra bu gün yaradılan infrastruktur Azərbaycanın öz imkanları ilə qürur duymasına imkan yaradacaq."

YAP Sədrinin müavini onu da bildirib ki, bu gün Azərbaycanın tarixinin yeni mərhələdə inkişaf etdiyini görürük: "Bu müasirlikdir, yenilikdir, möhtəşəmlikdir, daha sürətli inkişaf və insanlara daha yaxşı yaşamaq imkanlarının yaradılmasıdır. Prezident İlham Əliyevin mövcud imkanlardan istifadə edərək Azərbaycanın daha da müasirləşməsi, yeniləşməsi istiqamətində atdığı addımlar daha möhtəşəm və tarixi addımlardır. Bu fəaliyyət uzun müddət Azərbaycanın davamlı inkişafı üçün əsas yaradıb."

Ə.Əhmədov, eyni zamanda qeyd edib ki, 10-15 il bundan əvvəl beynəlxalq mətbuatda Azərbaycan haqqında yalnız problemlərlə bağlı informasiyaları əldə etmək olardı. Bu gün ən aparıcı mətbu orqanda Azərbaycanın möhtəşəm inkişafı ilə bağlı materiallar əsas yer tutur. Azərbaycan haqqında tez-tez deyilən "çiçəklənən və inkişaf edən ölkə" kimi fikirlər qürurvericidir.

"Gənclərin iştirak etdiyi tədbirdə, Azərbaycanın uğurlarından, belə geniş şəkildə ona görə bəhs edirəm ki, bütün bunların hamısı gənclərin qayğısız, xoşbəxt yaşamaları üçündür" fikrini söyləyən Ə.Əhmədov vurğulayıb ki, bu gün yaradılan möhkəm baza və müasirlik bundan sonra da Azərbaycanın inkişafına xidmət edəcək. Bu uğurlarımızla hər birimiz qürur duymalı, Prezidentin həyata keçirdiyi siyasətin mahiyyətini dərindən dərk etməli, onun həyata keçirilməsinə öz töhfəmizi verməliyik: "Bu siyasətə qara yaxmaq istəyən insanlara layiqli cavab verməliyik. Çünki Azərbaycanın bu uğurlarını görüb, bundan məyus olan insanlar da vardır. Bu mənada, hər birimizin vəzifəsi ondan ibarət olmalıdır ki, bu inkişafı, bu əzəməti hər birimiz qiymətləndirək, onu qoruyaq, daha da möhkəmlənməsi üçün səylər göstərək, ən əsası, Prezident İlham Əliyevin ətrafında sıx birləşək. Azərbaycan əhalisinin böyük əksəriyyəti gənclərdir. Ölkəmizin gələcəyi gənclərlə bağlıdır. Gənclərimiz dövlətimizin başçısının həyata keçirdiyi siyasətin reallaşmasına öz töhfələrini versinlər, Azərbaycanın layiqli vətəndaşları olsunlar, yaxşı təhsil alsınlar və heç vaxt unutmasınlar ki, Azərbaycan bu inkişafa Heydər Əliyevin xidmətləri, Onun müəyyənləşdirdiyi siyasət nəticəsində nail olub. Heydər Əliyev yolu Azərbaycana yalnız və yalnız uğurlar gətirib."

Sonda YAP Sədrinin müavini gəncləri Dahi Öndər Heydər Əliyev irsini dərindən mənimsəməyə, Prezidentimiz İlham Əliyevin ətrafında daha sıx birləşməyə çağırıb.

**RƏFİQƏ KAMALQIZI**

# Qlobal miqyasda multikulturalizm ideyalarının fəal müdafiəçisi

*İlham Əliyev: "Həm siyasi, həm beynəlxalq nüfuzumuz artır, həm də iqtisadi inkişaf göz qabağındadır və dinlərarası, millətlərarası münasibətlər ən yüksək səviyyədə təmin olunur".*

***Müasir dövrümüzdə Azərbaycanın iqtisadi inkişafı, ölkədə hökm sürən siyasi sabitliyin məntiqi nəticəsi olaraq, bütün sahələrdə olduğu kimi, milli-mənəvi dəyərlərimizin qorunması və dünyada təbliği ilə bağlı möhtəşəm layihələr reallaşır. Bu layihələrə dövlət dəstəyinin olması milli dəyərlərimizin daha geniş bir şəkildə təbliğinə meydan verir. Azərbaycanda dini abidələrin dövlət tərəfindən qorunması, bərpası və tikintisi milli dəyərlərimizə olan münasibətin təzahürüdür. Müstəqillik dövründə 2 mindən artıq dini abidələrin bərpası və tikintisi fikrimizi əsaslandırır. Tariximiz, xalqımız üçün çox böyük əhəmiyyət daşıyan Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı cümə məscidləri və digər məscidlər yenidən qurulmuş və əsaslı təmir edilmişdir.***





Bakıdakı Heydər Məscidi, Gəncədə "İmamzadə" Kompleksi kimi binalar da Azərbaycan milli memarlığının və incəsənətinin nailiyyətlərinin parlaq nümunələri olmaqla yanaşı, insanların ibadət və dua etmələrinə imkan yaradır.

Ölkəmizdə mövcud olan dini abidələrin, ziyarətgahların təmir və bərpa edilməsi, inşası milli mənlik şüuru hissinin parlaq təzahürüdür. Təbii ki, müsəlman məbədləri ilə yanaşı, pravoslav, katolik, alban kilsələrinin, sinaqoqların tikintisi, təmiri də həyata keçirilmişdir ki, bu da Azərbaycanda dini tolerantlığın nümunəsidir. Bu, Azərbaycanda dövlət-din münasibətlərinin, dinlərarası dialoq, tolerantlıq, multikulturalizmin nümunəsi kimi səciyyələnir və dövlət siyasətinin real mənzərəsini əks etdirir.

## "BİZ ÖZ MİLLİ-MƏNƏVİ, DİNİ DƏYƏRLƏRİMİZƏ SADİQİK, ONLARI QORUYURUQ, EYNİ ZAMANDA, MÜSƏLMAN ALƏMİNDƏ HƏMRƏYLİYİN MÖHKƏMLƏNDİRİLMƏSİ ÜÇÜN SƏYLƏRİMİZİ ƏSİRGƏMİRİK"

Zidiyyətlərlə zəngin iyirmi birinci yüzillikdə, Azərbaycan ənənələrinə sadiq qalaraq, milli-mənəvi dəyərlərə önəm verərək islamofobiya, islam adından sui-istifadə edərək, qırğınlar törədənlərə malik olduğu dəyərləri ilə çağırışlar edərək, onları sülhə və dostluğa dəvət edir. Torpaqlarının 20 faizinin erməni ekstremistləri tərəfindən işğal edildiyi halda, Azərbaycan dinlər və sivilizasiyalararası dialoqa dair nüfuzlu beynəlxalq tədbirlər keçirir, milli-mənəvi irsimizlə yanaşı, bəşəri dəyərlərə sahib çıxır. Çağırışları ilə bütün dünya xalqlarına, bütün dünya dövlətlərinə Azərbaycanın bugünkü həqiqətlərini bəyan edir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Azərbaycan modeli, Azərbaycan nümunəsi bu gün dünyanın müxtəlif ölkələrində öyrənilir. Bizim bu istiqamətdəki siyasətimiz artıq özünü həm ölkəmizdə, həm bölgədə və həm də dünyada təsdiq etmişdir. Biz öz milli-mənəvi, dini dəyərlərimizə sadiqik, onları qoruyuruq, eyni zamanda, müsəlman aləmində həmrəyliyin möhkəmləndirilməsi üçün səylərimizi əsirgəmirik".

Bəli, dini ocaqlar, olan münasibət Azərbaycanın bugünkü həqiqətlərinin təzahürüdür. Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasına böyük töhfələr verən Heydər Əliyev Fondunun layihələri sırasında "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində həm müsəlman məscidləri, həm də xristian kilsəsi bərpa edilib, Azərbaycanda yaşayan yəhudi uşaqları üçün məktəb və mədəni mərkəz inşa olunub. Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpasında, bir sıra digər layihələrdə də təşəbbüskar olaraq iştirak edib. Məlumdur ki, Roma şəhərinin ətrafında yerləşən 60-a yaxın katakomba arasında Müqəddəs Marçellinio və Pietro katakombaları xristian aləmi üçün ən mühüm və ən maraqlı abidələrdən biridir. Romanın belə nüfuzlu arxeoloji abidəsinin bərpasına töhfəsini verən Heydər Əliyev Fondu tarixi missiyasını həyata keçirmiş oldu.

"Azərbaycan müstəqillik dövründə həmişə çalışıb ki, müsəlman aləmində birlik, həmrəylik daha da möhkəm olsun", - deyən Cənab Prezident bu məqsədlə ölkəmizdə müxtəlif tədbirlərin keçirildiyini vurğulayıb: "İslam Əməkdaşlıq Təşkilatının, ISESCO-nun xətti ilə onlarla tədbir keçirilmişdir. Deyə bilərəm ki, bu gün müsəlman aləmində, müsəlman aləminin bütün seqmentlərində Azərbaycan və onun siyasəti çox böyük rəğbətlə qarşılanır. Biz bundan sonra da, çalışacağıq ki, öz siyasətimizlə, o cümlədən, diplomatik səylərlə müsəlman ölkələri arasındakı ixtilafları aradan götürək, gərginliyi azaldaq və bu, bizim borcumuzdur. Biz bunu belə qəbul edirik. Azərbaycanda bütün müsəlmanlar bir ailə kimi yaşayırlar".



## AZƏRBAYCAN-ŞİMALİ OSETİYA XALQLARI ARASINDA MƏNƏVİ VƏHDƏT RƏMZİ OLAN MUXTAROV MƏSCİDİNƏ YENİDƏN HƏYAT VERİLDİ

Azərbaycanın həyata keçirdiyi layihələr sırasında bu günlərdə Azərbaycan Prezidentinin yardımı sayəsində Vladiqafqazda yenidən bərpa edilmiş Muxtarov məscidini qeyd etməliyik. Bu, Azərbaycanın Rusiya, Qafqaz, Şimali Osetiya-Alaniya ilə ənənəvi tarixi mədəni-mənəvi əlaqələri baxımından, xüsusi əhəmiyyət daşıyan bir hadisədir. Azərbaycan Prezidentinin qayğısı sayəsində yenidən qurulmuş Muxtarov məscidi xalqlarımız arasında mənəvi dostluq abidəsi olaraq qiymətləndirilir. Bu məscid binası 1908-ci ildə azərbaycanlı xeyriyyəçi Murtuza Muxtarov tərəfindən tikilib, Şərq memarlığının ən gözəl ənənələrini özündə ehtiva edir. Mənbələrdə qeyd olunur ki, "Priazovskiy kray" qəzetinin məlumatına görə, 80 min rubla başa gələn məscidin 50 min rublunu, məhz Bakı neft milyonçusu Murtuza Muxtarov verib. Bu səbədən, məbədə Muxtarov məscidi adı verilmişdir. Məscidin tikintisində layihə müəllifi İosif Ploşko qotik üslubundan istifadə etmişdir. Tikinti zamanı istifadə olunan əhəng daşı Bakı ətrafındakı karxanalardan aparılmışdır. Bəzək və rəssamlıq, əsasən də, X-XII əsr Qahirə məscidlərini xatırladır. Dekorasiyasında ərəb əlifbası ilə Qurani-Kərimdən edən ayələr işlənmişdir. 1934-cü ildən etibarən tarixi abidə statusu alaraq qorunur. Xatırladaq ki, Azərbaycan və Qafqaz xalqları arasında dostluq və qardaşlığı simvolizə edən mənəviyyat abidəsi olaraq tarixdə yer alan bu məscid 1996-cı ildə partlayış zamanı ciddi dağıntıya məruz qalmışdır. Azərbaycan-Şimali Osetiya xalqları arasında mənəvi vəhdət rəmzi olan bu məscidə yenidən həyat verildi. Bu, bir daha təsdiqlədi ki, ölkəmizin daxilində və xaricində dini-mənəvi mədəniyyət abidələrinə qayğı və himayəsini əsirgəməyən dövlət başçısı qlobal miqyasda multikulturalizm, islam həmrəyliyi ideyalarının fəal müdafiəçisi kimi çıxış edir. Bu hadisə xalqımızın xeyriyyəçilik fəaliyyətini, xalqlar arasında dostluğun möhkəmlənməsinə böyük töhfələr verməsindən xəbər verir. Prezident İlham Əliyevin bildirdiyi kimi, bu gün müstəqil Azərbaycan istənilən məsələ ilə bağlı fəxr edə bilər: "Həm siyasi, həm beynəlxalq nüfuzumuz artır, həm də iqtisadi inkişaf göz qabağındadır və dinlərarası, millətlərarası münasibətlər ən yüksək səviyyədə təmin olunur".

***Nəzakət ƏLƏDDİNQIZI***



# Azərbaycan KİV rəhbərləri Rusiya Xarici İşlər Nazirliyində olublar



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) təşkilatçılığı ilə respublikanın aparıcı KİV təmsilçilərinin Rusiya Federasiyasının paytaxtı Moskva şəhərinə səfər proqramı davam edir. Nümayəndə heyəti səfər çərçivəsində Rusiyanın dövlət qurumlarında, jurnalist təşkilatlarında və aparıcı KİV-lərinin redaksiyalarında görüşlər keçirir. KİVDF-dən AZƏRTAC-a verilən məlumata görə, nümayəndə heyətinin növbəti görüşü Rusiya Federasiyasının Xarici İşlər Nazirliyində qurumun İnformasiya və mətbuat departamentinin rəhbəri Mariya Zaxarova ilə keçirilib. KİVDF-nin icraçı direktoru Vüqar Səfərli KİV təmsilçilərinin Moskvaya səfərinin məqsədi, həmçinin Azərbaycanda KİV-in durumu və KİVDF-nin fəaliyyəti barədə məlumat verib. Görüşdə iştirak edən Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfiri Polad Bülbüloğlu Rusiya-Azərbaycan media qurumlarının sıx təmaslarının qurulmasının hər iki ölkənin maraqlarına xidmət etdiyini, Azərbaycan media təmsilçilərinin Moskvaya səfərlərinin bu baxımdan mühüm əhəmiyyət daşıdığını bildirib.

Mariya Zaxarova Azərbaycan KİV rəhbərlərinin Moskvaya səfərini və keçirdikləri görüşləri yüksək qiymətləndirib. O, hər iki ölkədə KİV-lə bağlı maraq doğuran məqamların müzakirə edilib səmərəli nəticə əldə edilməsi üçün canlı təmasların qurulmasını vacib sayıb. Görüş qarşılıqlı fikir mübadiləsi şəraitində davam edib.

Nümayəndə heyətinin üzvləri Rusiya Jurnalistlər Birliyinin sədri Vladimir Solovyovla da görüşüblər. Görüşdə iki ölkənin KİV qurumlarının və jurnalist təşkilatlarının təmaslarının gücləndirilməsi üçün təkliflər müzakirə edilib. Daha bir görüş "Komsomolskaya pravda" qəzetində keçirilib. Azərbaycan KİV təmsilçiləri qəzetin iş şəraiti ilə tanış olublar. Sonra qəzetin baş direktoru Vladimir Sunqorkinlə görüş keçirilib. Sunqorkin Azərbaycan KİV təmsilçilərinin Rusiyaya səfərini, Rusiya KİV-ləri ilə əməkdaşlıq əlaqələrini möhkəmləndirmək təşəbbüslərini yüksək qiymətləndirdiyini bildirib.

# Əməkhaqqı artımı ilə əlaqədar 94 min nəfərin pensiyası 30 faizdən çox artacaq



Prezident İlham Əliyevin bu il iyunun 18-də imzaladığı sərəncamlarla dövlət sektorunda əməkhaqlarının ciddi şəkildə artımı qanunvericiliyə əsasən xüsusi şərtlərlə pensiya təyin olunmuş 94 min nəfərin pensiyasının da 30 faizdən çox artmasına səbəb olacaq. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, onların sırasına dövlət qulluqçuları, hərbi qulluqçular, ədliyyə, hüquq-mühafizə, fövqəladə hallar, miqrasiya orqanları əməkdaşları, xüsusi rütbəli şəxslər və başqaları daxildir. Həmin şəxslərin çalışdıqları sahələr üzrə əməkhaqlarının artımı ilə əlaqədar qanunvericiliyə əsasən onların əmək pensiyaları da yenidən hesablanaraq artırılır. Onların pensiyalarına edilən artımlar əməkhaqlarının artırıldığı vaxtdan hesablanaraq ödənilir. Beləliklə, ötən ay dövlət başçısının qanunvericilik təşəbbüsü əsasında minimum pensiyanın 200 manata çatdırılması 660 min vətəndaşın, əməkhaqlarının artımı isə xüsusi şərtlərlə pensiya təyin olunmuş 94 min nəfərin pensiyasının əhəmiyyətli dərəcədə artmasına imkan verib. Nəticədə bu il ərzində həyata keçirilən ikinci sosial paket 750 mindən çox vətəndaşın pensiyasının ciddi şəkildə artması ilə nəticələnib.

# "Bu dəfə Bakıya gələndə gözlərimə inana bilmədim"



Xəbər verdiyimiz kimi, Bakıda UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası davam edir. Sessiyada Dünya İrs Komitəsinə aid bir sıra məsələlər, o cümlədən konvensiyadakı maddələr müzakirə olunur. Sessiya, eləcə də Bakı barədə əcnəbi qonaqlar maraqlı münasibətlər bildirirlər. SİA oxuculara ukraynalı millət vəkili Mariya Soloviovanın müsahibəsini təqdim edir:

***- Mariya xanım, UNESCO-nun Bakı sessiyası ilə bağlı nə deyərdiz?***

- Sessiya olduqca yüksək səviyyədə keçirilir. Bir neçə gündür ki, Bakıdayam və olduqca gözək hisslər içindəyəm. Yaxşı ki, Bakıya yenidən gəldim..

***- Sonuncu dəfə Azərbaycana nə zaman səfər etmisiniz?***

- Mən hələ Sovetlər Birliyi dönəmində Bakıya gəlmişdim. Aradan uzun illər ötüb. Bu dəfə Bakıya gələndə gözlərimə inana bilmədim. Bakı çox dəyişib, hədsiz gözəl şəhərə çevrilib. Bu illər ərzində bu qədər inkişaf etməyiniz məni çox sevindirdi. Mən ölkənizi, insanlarınızı sevirəm.

***- Yəqin ki, bu günlər ərzində şəhərimizi gəzmək, Azərbaycanın ləziz mətbəxindən dadmaq imkanlnız olub..***

- Sizi inandırım ki, Azərbaycan mətbəxi sözün əsl mənasında mükəmməldir. Yeməkləruniz çox dadlıdır. "İçəri şəhər" olduqca gözəldir. Mən Bakıda özümü evimdəki kimi hiss edirəm. Bu şəhərə, ləziz təamlara, insanların gülər üzünə heyranam. Ümid edirəm yenə gəlmək imkanı olacaq və böyük məmnuniyyətlə yenə bu gözəl şəhəri ziyarət edəcəyəm. Fürsətdən istifadə edib ölkə rəhbərliyinizə bu diqqət və təşkilatçılıq üçün təşəkkür edirəm.

***- Səmimi müsahibə üçün təşəkkür edirik.***

- Diqqətiniz üçün mən təşəkkür edirəm.

# Lüksemburqun nümayəndəsi: Azərbaycan mədəni və təbii irsin qorunması sahəsində ən yaxşı təcrübələri bir araya gətirir



Azərbaycan ümumdünya mədəni və təbii irsin qorunması sahəsində ən yaxşı təcrübələri bir araya gətirərək bu işə mühüm töhfələr verir. Bu fikri AZƏRTAC-a müsahibəsində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak edən Lüksemburqun UNESKO üzrə Milli Komissiyasının baş katibi Katerin Deker söyləyib. Qonaq qeyd edib ki, UNESKO-nun bu tədbiri ümumbəşəri dəyərə malik tarixi və mədəni abidələrin Dünya İrs Siyahısına salınması üçün müzakirələr aparmaq baxımından əhəmiyyətlidir. 2500-dən çox nümayəndənin iştirakı və tədbirin yüksək səviyyədə təşkili Azərbaycanın bu işə töhfəsini göstərir.

Azərbaycanın zəngin tarixə və mədəniyyətə malik olduğunu söyləyən qonaq burada olmaqdan məmnunluğunu ifadə edib: "Burada olduğum müddətdə Yanardağ qoruğu, Xalça Muzeyi, Atəşgah məbədində oldum. Ölkənizin qədim tarixə malik olması barədə məlumatlı olsam da, bu irsin milli səviyyədə mühafizə edilməsinə xüsusi diqqəti gördüm".

# İrena Vaisvilayte: İnanıram ki, hər bir nümayəndə Bakı sessiyasından öz ölkəsinə xoş təəssüratlarla qayıdacaq



Azərbaycanın Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına sədrlik etməsi UNESKO-nun ölkənizə olan inamının, diqqətinin göstəricisidir. Tədbir, həmçinin ölkənizin mədəni irs abidələrinin Dünya İrs Siyahısına salınması üçün gözəl bir fürsətdir. Belə tədbirlər Azərbaycanın nailiyyətlərini təşviq etmək baxımından da yaxşı vasitədir. İnanıram ki, bu tədbirdən sonra hər bir nümayəndə öz ölkəsinə xoş təəssüratlarla qayıdacaq. Tədbirin iştirakçıları ölkənizin təkcə neft və qaza deyil, həmçinin zəngin tarixi irsə sahib olduğunun şahidi olurlar.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak edən Litvanın UNESKO-dakı daimi nümayəndəliyinin rəhbəri İrena Vaisvilayte deyib. Litva ilə Azərbaycan arasında sıx dostluq və əməkdaşlıq münasibətlərinin olduğunu söyləyən qonaq belə bir mötəbər tədbirin təşkilinə görə Azərbaycan hökumətinə, xüsusilə Mədəniyyət Nazirliyinə təşəkkürünü bildirib. O, 25 il əvvəl Azərbaycanda olduğunu və ötən müddət ərzində ölkənin çox dəyişdiyini və inkişaf etdiyini vurğulayıb: "Paytaxt Bakının simvolu olan Qız qalası, şəhərə xüsusi yaraşıq verən "Alov qüllələri" və İçərişəhərdə oldum. Sevindirici haldır ki, dövlətiniz tarixi mədəni irsi qorumaqla yanaşı, yeni memarlıq nümunələrinin inşasına da xüsusi diqqət ayırır. Bir tarixçi kimi deyə bilərəm ki, Azərbaycan qədim tarixə və zəngin mədəniyyətə malik ölkədir. Bilirəm ki, Azərbaycan müsəlman Şərqində Avropadan çox-çox əvvəl qadınların səsvermə hüququnu tanıyan ilk demokratik dövlət olub".

Qonaq bu günlərdə sessiya çərçivəsində Azərbaycan Xalça Muzeyində təşkil edilən tədbirdə iştirak etdiyini və xalçımızın qədim xalçaçılıq sənətinin onda böyük maraq doğurduğunu söyləyib.

# Azərbaycan diasporu ölkəmizin milli maraqlarını əzmlə qoruyan bir qüvvəyə çevrilib

*Ümummilli Lider Heydər Əliyevin "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" 5 iyul 2002-ci il tarixli Fərmanından 17 il ötür*

***Azərbaycan diasporu bu gün bir məslək və əqidə ətrafında yetərincə birləşərək, ölkəmizin mənafeyi istiqamətində ardıcıl iş aparır. Qloballaşan dünyada müxtəlif ölkələrdə yaşayan azərbaycanlıları bir araya gətirmək, bir məslək və ideya ətrafında birləşdirmək, əlbəttə ki, azərbaycançılıq məfkurəsindən yaranan amaldır. Təbii ki, ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqillik əldə etmiş Azərbaycanda ideya əsas prioritetlərdən biri elan ediləərək, bu istiqamətdə ardıcıl işlər görülməyə başlandı.***



1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı, digər sahələrdə olduğu kimi, diaspor quruculuğu işində də əsaslı dönüş yaratdı. Dünya azərbaycanlılarının vətənlə əlaqələrinin inkişaf etdirmək, soydaşlarımızın milli özünəməxsusluğunu qoruyub-saxlamaq, diasporun potensialından milli maraqlarımızın daha etibarlı şəkildə qorunması istiqamətində faydalanmaq, diasporlararası əlaqələri genişləndirmək kimi məqsədləri reallaqdırmaq üçün mühüm addımlar atıldı. Ümummilli Lider Heydər Əliyev cəmiyyətin bütövləşməsi və azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlərə imza atdı. Ulu Öndər azərbaycançılıq ideologiyasının real müstəqilliyə nail olmaq, vahid və bölünməz Azərbaycanı qoruyub-saxlamaq və möhkəmləndirmək üçün vasitə olduğunu vurğulayırdı.

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onlar arasında birliyin və həmrəyliyin təmin olunması kimi məsələlərin, zərurətini nəzərə alaraq, Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında 2001-ci ilin may ayının 23-də Ümummilli Lider Heydər Əliyevin məlum Sərəncamı bu ideologiyanın gerçəkləşməsinə istiqamətləndi. Qurultay milli ideologiyamız olan azərbaycançılıq ideyası ətrafında soydaşlarımızın birlik və həmrəyliyini nümayiş etdirdi. Qurultayda Ulu Öndər Heydər Əliyev qurultayın məqsədinə, qarşıya qoyulan məsələlərə aydınlıq gətirərək, bildirmişdi ki, hamımız - siz də, biz də çox iş görməliyik ki, Azərbaycanın güclü diasporu yaransın: "Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar daha da güclənsinlər. İqtisadi cəhətdən daha da möhkəmlənsinlər, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak edə bilsinlər və o ölkələrin həyatına öz təsirlərini göstərə bilsinlər. Beləliklə də, müxtəlif ölkələrdə Azərbaycanın müstəqilliyini, onun xarici siyasətini təbliğ etməklə yanaşı, Azərbaycanın problemlərinin həll olunmasına yardım etsinlər. Hesab edirəm ki, dünya azərbaycanlıları bu yol ilə getməlidir və bu yolda hələ istifadə olunmamış böyük imkanlar vardır. Bu gün işinə başlayan qurultay da, məhz bu məqsədi daşıyır".

Bir il sonra 5 iyul 2002-ci il tarixində Ümummilli Lideri Heydər Əliyevin "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" imzaladığı Fərman tarixi hadisəyə çevrildi. Artıq imzalanan bu rəsmi sənəddən bu gün 17 il keçir. Tarixi dövr ərizində görülən işlərin miqyası ildən-ilə artmışdır. Əgər o vaxt dünyada 200-dən bir qədər çox diaspor təşkilatımız var idisə, hazırda onların sayı 462-dir. Azərbaycan diaspor təşkilatları həm kəmiyyət, həm keyfiyyət baxımından böyük yol keçmiş, güclənmiş, bu gün dünya miqyasında azərbaycanlılar və onların təmsil etdikləri təşkilatlar önəmli rol oynayırlar.

## AZƏRBAYCAN DİASPOR TƏŞKİLATLARI HƏM KƏMİYYƏT, HƏM DƏ KEYFİYYƏT BAXIMINDAN GÜCLƏNMİŞDİ

Bu gün əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan diaspora quruculuğu siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qayğısı və yüksək diqqəti sayəsində uğurla davam etdirilir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2008-ci il 19 noyabr tarixli 54 saylı Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diaspora İş üzrə Dövlət Komitəsi yaradıldı.

Azərbaycan diasporu təşkilatlanaraq, ölkəmizin milli maraqlarını əzmlə qoruyan bir qüvvəyə çevrilib. Azərbaycan diasporunun məskunlaşma coğrafiyasının miqyası sonsuzdur. Dünyanın 5 qitəsində məskunlaşan soydaşlarımızın siyasi, iqtisadi və sosial-mədəni fəaliyyəti yaşadıqları ölkələr, oradakı şərait və mənəvi dəyərlər kimi müxtəlifdir. Lakin problemlərə və çətiniklərə baxmayaraq, azərbaycanlılar hər zaman öz milli mənsubiyyətini, adət-ənənələrini, mənəvi-əxlaqi dəyərlərini qayğı ilə qoruyub-saxlayıb və tarixi Vətənlə əlaqələrini itirməyiblər. Bu gün dünyanın müxtəlif ölkələrində diasporumuzun mövcudluğu da, məhz bu amillə bağlıdır. Azərbaycanlılar Amerika qitəsinin şimal, mərkəzi və cənub hissəsində daha çox məskunlaşıblar.

## "BU GÜN DÜNYANIN MÜXTƏLİF YERLƏRİNDƏ TƏDBİRLƏR KEÇİRİLİR, DÜNYA İCTİMAİYYƏTİ AZƏRBAYCAN REALLIQLARI İLƏ DAHA DA GENİŞ ŞƏKİLDƏ TANIŞ OLA BİLİRLƏR"

2016-cı il 3 iyun tarixində keçirilən Dünya Azərbaycanlılarının IV Qurultayı da ölkəmizin tarixinə iftixar gətirəcək hadisələrdən biri kimi yazıldı. Çünki dünya azərbaycanlılarını təmsil edən əsas diaspor təşkilatlarının nümayəndələri, rəhbərləri Azərbaycana - doğma Vətənə gəlmişdilər. Bu birliyin və həmrəyliyin nümayişi idi. Dünya Azərbaycanlılarının IV Qurultayının rəsmi açılışında Azərbaycan Prezidenti İlham Əliyev çıxışında "Mən çox istəyirəm ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatları da bir nöqtəyə vursunlar və birləşsinlər. Belə olan halda, onların gücü də, ictimaiyyət tərəfindən onlara qarşı hörmət də artacaq" deyərək, birliyin əsas məsələlərdən olduğunu diqqətə çatdırmışdır: "Xüsusilə, nəzərə alsaq ki, bütün azərbaycanlılar, onların böyük əksəriyyəti vətənpərvərdirlər, Vətənə bağlıdırlar. Onlar istəyirlər ki, Azərbaycan dövləti daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin".

İki gün davam edən Dünya Azərbaycanlılarının IV Qurultayında 49 ölkədən 500-dən çox diaspor nümayəndəsi və qonağın iştirakı bu birlik və həmrəyliyin nümunəsi idi. Qurultayda müasir dövrdə informasiya müharibəsi, bu sahədə yeni fəaliyyət mexanizmlərinin tətbiqi, Azərbaycan diaspor hərəkatında gənclərlə bağlı yeni strategiyanın hazırlanması, yeni qlobal iqtisadi tendensiyalar fonunda lobbi quruculuğu, cəmiyyətə inteqrasiya, siyasi həyatda iştirak və digər bu kimi əhəmiyyətli mövzularda fikir mübadiləsi aparıldı. Dünya Azərbaycanlılarının IV Qurultayında Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində qarşıda duran vəzifələr, təbliğat işində müasir metodların və informasiya texnologiyalarının tətbiqi, soydaşlarımızın hüquq və azadlıqlarının qorunması istiqamətində mövcud olan problemlər və onların həlli yolları və s. prioritet məsələlər müzakirə olundu. Prezident İlham Əliyev Azərbaycan həqiqətləri haqqında dünya ictimaiyyətinə geniş informasiya verilməsinin vacibliyini diqqətə çəkərək, hazırda bizim 92 diplomatik nümayəndəliyimizin və 60 səfirliyimizin olduğunu bildirib.

Azərbaycan Prezidenti İlham Əliyev müstəqilliyimizin ilk illərində, zəif olmağımızdan istifadə edən erməni diasporunun uzun illərdir ki, dünyada bizə qarşı çox çirkin kampaniya apardığını və bu kampaniyanın tərkib hissəsinin Azərbaycanı antidemokratik, Ermənistanı isə yazıq, "blokada" şəraitində olan ölkə kimi təqdim etmək məqsədi daşıdığını bildirib: "Azərbaycanda bu illər ərzində diaspor təşkilatları ilə qurulan iş yeni bir mərhələyə gəlib çatıb. Dünyanın müxtəlif yerlərində tədbirlər keçirilir, dünya ictimaiyyəti Azərbaycan reallıqları ilə daha geniş şəkildə tanış ola bilirlər".

Bu gün ölkəmizdə xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması istiqamətində, bir sıra mühüm tədbirlər həyata keçirilməkdədir. Diasporumuzun gördüyü işlər yaşadıqları ölkələrin siyasi həyatına təsir edəcək səviyyəyə yüksəlir. Prezident İlham Əliyevin bu sahədə ardıcıl və qətiyyətli, məqsədyönlü və prinsipial siyasət aparması, deməyə əsas verir ki, Azərbaycan diasporu güclənib, doğma Vətənin taleyüklü problemlərinin həllində yaxından iştirak edir.

**ZÜMRÜD**

---

# Azərbaycan nümayəndə heyəti Avropa Şurası Konqresinin Monitorinq Komitəsinin işində iştirak edib

***Norveçin paytaxtı Oslo şəhərində Avropa Şurası Yerli və Regional Hakimiyyətləri Konqresinin Monitorinq Komitəsinin iclası keçirilib.***

AZƏRTAC xəbər verir ki, qurumun Monitorinq Komitəsinin işində ölkəmizi Avropa Şurası Konqresində Azərbaycan nümayəndə heyətinin rəhbəri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov və Azərbaycan Şəhər Bələdiyyələri Milli Asossasiyasının və Nərimanov bələdiyyəsinin sədri Təmraz Tağıyev təmsil ediblər.

Avropa Şurası Konqresi tərəfindən üzv dövlətlərdə Avropa Özünüidarəetmə Xartiyası çərçivəsində öhdəliklərinin həyata keçirilməsinə nəzarət edən Komitənin iclasında, eyni zamanda, bir sıra ölkələrdə seçki müşahidə missiyalarının hesabatlarının dinlənilməsi baş tutub. Monitorinq Komitəsinin iclasında Türkiyənin İstanbul şəhərində təkrar mer seçkiləri, Bosniya və Herseqovinanın yerli və regional seçkilərlə bağlı hesabatları dinlənilib, müvafiq tövsiyə layihələrinin Konqresin növbəti sessiyasında müzakirəyə çıxarılması qərara alınıb.



İclasda, həmçinin yerli səviyyədə keçirilən referendumlar, yerli və regional ombudsman təsisatları haqda Venesiya Komissiyasının tövsiyələri, Avropa Yerli Özünüidarəetmə Xartiyasının üzv dövlətlərin məhkəmələri tərəfindən prezident hüququ qaydasında istifadə olunması, insan hüquqları və bir sıra digər məsələlər müzakirə olunub.

Monitorinq Komitəsinin iclasında respublikamızda yerli və regional demokratiyanın vəziyyətinə dair dinləmələrdə Azərbaycan nümayəndə heyətinin rəhbəri çıxış edərək, son zamanlar bu sahədə görülən işlər və mövcud vəziyyət barədə məlumat verib.

Avropa Şurası Konqresinin Monitorinq Komitəsinin növbəti toplantısının Konqresin 37-ci sessiyası dövründə Strasburqda keçirilməsi qərara alınıb.

# Cənubi Qafqazda geosiyasi dəyişikliklər:

# Con Bolton Ermənistana qarşı

***İnformasiya müharibəsi dövründə, təbii ki, müəyyən məqsədlər naminə hansısa fikri ictimai şüura yeritmək cəhdləri ola bilər. Böyük dövlətlərlə bağlı bu aspektdə absurd fikirlərin səsləndirilməsi də mümkündür. Lakin indiki həssas geosiyasi məqamda ictimai rəyin manipulyasiyasının fəsadları istisna deyil. Bu baxımdan, erməni ekspertlərin ortaya atdıqları bəzi iddiaların arxasında hansı təhlükəli nüansların dayandığını anlamağın faydası vardır. Bütövlükdə, informasiya müharibəsində inandırıcı görünmək üçün həm nüfuzlu şəxslərin adından istifadə edilir, həm də yayılan informasiyalara gizlilik donu geydirilməyə cəhd edilir. O da məlumdur ki, bu prosesdə yalanlar gec və ya tez ifşa olunur. Ancaq o da həqiqətdir ki, bir çox hallarda ictimai rəy məqsədli şəkildə yanlış istiqamətlərə yönləndirilir. Bütün bunları nəzərə alaraq, biz bir məqamın üzərində geniş dayanmağa ehtiyac duyduq.***




## Arxa qapıdan giriş:
## Boltonun kimliyi haqqında dolaşıq fikirlər

Amerikanın Cənubi Qafqaz siyasəti çox maraqlı və diqqət cəlb edəndir. Dünyanın ən güclü ölkəsinin regionla bağlı mövqeyinin əsas cəhətləri həmişə ekspertlər üçün maraqlı təhlil predmeti olub. Xüsusilə, hazırkı mərhələdə qlobal geosiyasi proseslərin mürəkkəb və ziddiyyətli məqamları başqa regionlara olduğu kimi, Cənubi Qafqaza da öz təsirini göstərir. Bunun fonunda Vaşinqtonun siyasi kursunun Qafqazla bağlı hissəsi bizim üçün daha da aktuallaşır.

Ekspertlər Yaxın Şərq və Cənubi Qafqaz istiqamətində ABŞ Prezidentinin milli təhlükəsizlik müşaviri Con Boltonun fəal işlədiyini ifadə edirlər. Erməni ekspertlər də bu mövzuya bir sıra hallarda maraq göstərirlər. Onlardan birinin yazısında C.Boltonun Cənubi Qafqazla bağlı mövqeyinin şərhi diqqətimizi çəkdi. Yervand Bozoyan cəhd edir ki, ABŞ Prezidentinin müşavirinin siyasətçi və diplomat kimi kimliyini açsın.

Erməni ekspert C.Boltonu qatı antiirançı və Türkiyə tərəfdarı kimi təqdim edir. Hesab edir ki, C.Bolton Cənubi Qafqazda əsas geosiyasi güc kimi Türkiyə-Azərbaycan cütlüyünü görür. Bu gücdən istifadə edərək Vaşinqton İrana qarşı daha sərt mövqe tuta bilər. Eyni zamanda, Amerikanın Ermənistandan istədiyi İranla sərhədlərin bağlanmasıdır. Güclü Azərbaycan və güclü Türkiyəni Ermənistan da qəbul etməlidir. Çünki İrəvanın başqa yolu yoxdur. Əgər bunu qəbul etməsə, Dağlıq Qarabağdan Ermənistan dərhal çıxmalı olacaq və hətta Ermənistanın özü bir dövlət olaraq mövcud olmaya da bilər.

Bunlardan başqa, Nikol Paşinyan Qarabağ klanını məhv etməli və reallığı erməni cəmiyyətinə anlatmalıdır. Lakin N.Paşinyanın bunun öhdəsindən gəlib-gəlməyəcəyi məlum deyil. Bu da təbii ki, Ermənistan rəhbərliyinin hələ də qeyri-müəyyən vəziyyətdə qalması deməkdir. Buna baxmayaraq, Ermənistanı Rusiyanın təsiri altından çıxarmaq, cəmiyyətdə antitürk əhval-ruhiyyəsini dəyişmək gərəkdir. Çünki Türkiyə Cənubi Qafqazda əsas geosiyasi gücdür. N.Paşinyan da cəmiyyətdə bu istiqamətdə rəyi dəyişdirmək üçün lazımdır.

Əlavə olaraq, Meğri rayonu ilə Dağlıq Qarabağda bir rayonu dəyişməklə Ermənistanın İranla sərhədini kəsmək olar. Guya, Bakı və Ankara buna razıdır. Gürcüstana gəldikdə isə, C.Bolton bu ölkəni Rusiyanın cənubunda manea kimi görür. Gürcüstandan İrana qarşı hərbi əməliyyatlarda da istifadə etmək olar.

Bu qısa xülasədən aydın görünür ki, C.Boltonun siyasətçi və diplomat kimi müəyyən obrazını yaratmağa cəhd edilir. Onun tərcümeyi-halından da müəyyən fraqmentlər gətirilir və C.Bolton müharibə tərəfdarı kimi göstərilir. Ayrıca, C.Bolton hesab edir ki, İran, Şimali Koreya və Kuba ilə danışıqlar aparmağın mənası yoxdur - onlar yalnız vurulmalıdırlar. O, Rusiya və onun müttəfiqlərini də "ikinci şər oxu" kimi qəbul edir və nəyin bahasına olur-olsun, onlar məhv olunmalıdırlar.

Nəhayət, erməni ekspert məqalədə C.Boltonun bir qatı yəhudi tərəfdarı olduğunu da vurğulayır. O, 2010-cu ildə "İsrailin dostları" adlı təşəbbüs qrupu yaradıb. Bu qrup "hər yerdə, hər zaman İsrailin maraqlarını təmin etməyi" əsas vəzifə hesab edir.

Beləliklə, C.Boltonun həm İsrail, həm Türkiyənin maraqlarını müdafiə edən siyasətçi-diplomat obrazı yaradılır. C.Bolton "hər yerdə İsrailin maraqlarını müdafiə edir", həm də Türkiyəni "ABŞ-ın ən etibarlı müttəfiqi" sayır. Sonra belə göstərilir ki, C.Bolton şəxsən istərdi ki, Cənubi Qafqaz tamamilə Türkiyə-Azərbaycan cütlüyünün aparıcılığı ilə idarə edilsin, regionun digər dövlətləri bu iki türk dövlətinin ritminə uyğun təkamül yolu seçsinlər. Təbii ki, belə olan halda, İran və Rusiya arxa plana atılır.

## Azərbaycan-Türkiyə cütlüyü: İran və Rusiyaya qarşı qoyma cəhdi

Erməni ekspertlərin ənənəvi olaraq antitürkiyə və antiazərbaycan mövqedə olduqlarını nəzərə alsaq, Y.Bozoyanın da bütün bunları yaxşı niyyətlə yazmadığını deyə bilərik. Onu maraqlandıran, əslində, məsələnin başqa tərəfidir. Digər yazılardan da görünür ki, bütövlükdə, erməni ekspert dairələri hər fürsətdə Azərbaycan və Türkiyə ilə bağlı real faktları təhrif edərək, onları günahkar çıxarmaq üçün dəridən-qabıqdan çıxırlar. Burada da eyni ssenaridir.

Yəni, məsələ ondan ibarətdir ki, ermənilər apardıqları informasiya müharibəsi vasitəsilə çalışırlar ki, Azərbaycan və Türkiyənin regionda Rusiya və İrana qarşı "gizli fəaliyyətdə" olduğu ictimai rəyə yeridilsin. Buna görə də C.Boltonla bu ölkələr bir sıra məsələlərdə ortaq fəaliyyətdə təqdim edilirlər. Hazırda bu "ortaqlıq" İranı parçalamaq istiqamətində "daha da dərinləşir"! Burada, necə deyərlər, stop!

Deməli, çətin vəziyyətdə olan İranın regionda əsas "düşmənləri" Türkiyə-Azərbaycan cütlüyüdür! İran şübhə etməsin ki, bu "ciddi faktordur", çünki Vaşinqtonun "qırğıları" da bu türk ölkələrinin hegemon olmasına çalışırlar. Görünür, burada Donald Trampın Azərbaycan Prezidentinə ünvanladığı məktubların obyektivliyini də şübhə altına almaq kimi iyrənc bir cəhd vardır.

Türkiyə məsələsinə gəldikdə isə, getdikcə aydın olur ki, bu dövlətin inkişafının qarşısını kimsə ala bilməyəcək. Bu da digər regionlarla yanaşı, Cənubi Qafqazda da geosiyasi aspektdə qüvvələr nisbətini dəyişə bilər. Daha güclü Türkiyə faktını hətta İrəvan belə qəbul etməli olacaq. Bu halda ən yaxşı üsullardan biri Rusiyanın qısqanclığını yaratmaqdan ibarətdir. Təbii ki, Kremlin tarixi təcrübəsi çox böyükdür və hər ucuz fikrə aldanmaz. Lakin cəmiyyətdə müəyyən kəsimlərin rəyinə təsir etmək mümkündür.

Beləliklə, mənzərə aydındır: getdikcə daha da dərinləşən və genişlənən Türkiyə-Rusiya, Türkiyə-İran, Azərbaycan-İran və Azərbaycan-Rusiya münasibətlərinə xələl gətirmək üçün müxtəlif ssenarilər uydurur, hətta qatı İsrail tərəfdarını qatı Türkiyə tərəfdarı kimi də təqdim etməkdən belə çəkinmirlər. Reallıqda bu iki istiqamət birləşə bilməz. Səbəbi o qədər aydındır ki, təkrar deməyə elə də ehtiyac yoxdur.

Dünyada hansı böyük dövlətin böyük bir ərazidə güclü türk dövlətlərinin meydana gəlməsinə müsbət yanaşdığını bilmirik. Bundan başqa, Azərbaycanı Türkiyənin "Qafqazdakı davamı" kimi qələmə vermək də tam yanlışlıqdır. Çünki Azərbaycan müstəqil dövlət kimi özündən başqa kimsəni təmsil etmir. Ölkənin xarici siyasəti tamamilə milli maraqlar üzərində qurulub və buna tam müstəqil siyasi kursa üstünlük verməklə nail olunur.

Bununla yanaşı, Azərbaycan Türkiyə ilə ən yaxın əməkdaşlıq xəttini seçib. Çünki dövlət olaraq regionda Azərbaycanın maraqlarına daha yaxın mövqeni Türkiyə tutur. Azərbaycan bu təbii müttəfiqlikdən niyə imtina etməlidir? Bütün dünya dövlətləri bir-biri ilə səmimi əməkdaşlığa can atdığı bir mərhələdə Bakı və Ankara hansı səbəblərdən bir yerdə olmasınlar? Bu suallara heç kəs mənfi cavab verə bilməz.

Buna görə də, Azərbaycan-Türkiyə əməkdaşlığında kimlərəsə qarşı hansısa mənfi çalar axtarmaq absurd bir məşğuliyyətdir. Bu əməkdaşlığın təməlində maraqların yaxınlığı və real geosiyasi mənzərə dayanır. Yəni, Bakı və Ankaranın kimlərəsə qarşı birləşmək kimi bir planı yoxdur və olmayacaq da.

Əlbəttə, burada Türkiyə və Azərbaycanın Amerika ilə əlaqələrinin daha sağlam müstəviyə keçməkdə olması da bizə dost olmaq istəməyən bir sıra dairələri narahat edir. Xüsusilə, Osakoda Tramp-Ərdoğan danışıqlarında əldə olunan nəticələr və D.Trampın Azərbaycan Prezidentinə ünvanladığı məktublar həmin dairələrdə narahatlığı artırıb. Çünki bunların fonunda Ermənistanın heç bir real addımı gözə dəymir və o, daha aciz vəziyyətə düşür.

Burada Azərbaycan-Rusiya münasibətlərinin yüksələn xətlə inkişaf etməsini də unutmaq olmaz. İki ölkənin prezidentlərinin çox yaxşı münasibətdə olması və buna rəğmən, Vladimir Putinin N.Paşinyanla elə də isti münasibətdə olmaması Rusiya cəbhəsində də İrəvanın problemlərinin olduğuna işarə edir.

Bütün bunlardan qarşı tərəfin informasiya müharibəsindən primitiv üsulla istifadə etməyə çalışdığı aydın olur. Əlbəttə, C.Bolton ABŞ kimi qüdrətli bir dövlətin rəsmisi olaraq ciddi planlar qura bilər. Lakin şübhə yoxdur ki, C.Bolton hər şeydən öncə Amerikanın maraqları üçün çalışır. Digər məqamlar ikinci dərəcəlidir və tam olaraq bu faktordan asılıdır. Bunu hər kəs bilir.

***Newtimes.az***

# Xain Əli Kərimlinin satqın əməllərinə dair yeni faktlar açıqlanıb

## *Ceyms Makqovernin və Tom Lantosun AXCP sədri Əli Kərimliyə növbəti tapşırıqlar verdiyi bəlli olub*

***Zaman-zaman müxalifətin yaramaz xislətli partiya yetkililərinin xarici məkrli dairələrlə iş birliyində olmasına dair faktlar və sübutlar ortaya qoyulub. Təkzibedilməz sübutlar bir daha təsdiq edir ki, AXCP sədri Əli Kərimli, Müsavat başqanı Arif Hacılı, "Milli Şura" rəhbəri Cəmil Həsənli və digərləri xarici anti-Azərbaycan dairələrin sifarişləri əsasında fəaliyyətlərini qurub, ölkəmizdə ictimai-siyasi sabitliyi pozmağa cəhdlər göstəriblər. Qarşılığında isə, maliyyə yardımları alıblar.***

Başdan-ayağa çirkaba bulaşan partiya sədrləri bəzən övladlarını da dövlətimiz və xalqımız əleyhinə antitəbliğat kampaniyası aparmağa təhrik edirlər. Buna misal kimi, AXCP sədri Ə.Kərimlinin oğlu Turkel Kərimlini özünün çirkin əməllərinə şərik etməsini göstərmək olar. Məhz Ə.Kərimlinin tapşırığı əsasında T.Kərimli ABŞ-ın ermənipərəst konqresmeni Tom Lantosun təklifi ilə keçirilən insan haqları komissiyasının "Azərbaycanda insan haqlarının pozulması"na dair dinləmələrində iştirak və çıxış edib. Britaniya təhsilli T.Kərimlinin ingilis dilində öz ölkəsi haqqında ağına-bozuna baxmadan, səpələdiyi böhtançı cümlələrini, o biri tərəfdən, yeni Azərbaycandan Xədicə İsmayıl adlı digər milli satqın da skayp vasitəsilə təsdiqləyib. Özü də, Ermənistandan tökülüşüb gəlmiş jurnalist ordusunun, "Amerikanın Səsi" radiostansiyasının erməni bürosunun əməkdaşlarının, həmçinin, işğal altındakı Qarabağın separatçı "prezidenti" Bako Saakyanın oğlu, Amerika Erməni Konqresinin fəalı Armen Saakyanın qarşısında.

### Turkel Kərimli erməni kəşfiyyatı tərəfindən ələ alınıb

Təbii ki, Amerikanın ermənipərəst "simaları" - ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Riçard Kozlariçin, qondarma erməni soyqırımının tanınması istiqamətində erməni lobbisinin əlaltısına çevrilmiş siyasi korrupsioner Ceyms Makqovern və sairlərin qarşısında. Məsələ yalnız bununla bitmir. Yəni söhbət Ə.Kərimlinin əziz-xələf



oğlunun atasının çirkablı yolunun davamı kontekstində gizlənən başqa faktorlardan da gedir. Məsələn, artıq 100% sübuta yetirilib ki, AXCP sədri hakimiyyətə yiyələnməkdən ötrü, vaxtilə "şeytanla da əməkdaşlığa hazırıq" ifadəsinə əməl edib. Özü də, bir dəfə deyil, dəfələrlə. Həmin ifadələrdən biri də, məhz bəhs etdiyimiz mövzu daxilindədir. Özünü "milli demokratiyanın" "ana müxalifətçi" partiyasının sədri kimi təqdim edən böyük Ə.Kərimliyə sual edilməlidir ki, nəyə görə həmin dinləmələrdə, məhz kiçik Kərimli çıxış edib?

### "Milli Şura" tör-töküntü yığnağına çevrilib

Sual olunur: Ə.Kərimlinin AXCP-də, yaxud "Milli Şura"sında çıxış edəcək başqa adam tapılmadımı? C.Həsənli, İ.İbrahimli, G.Hacıbəyli, Q.Zahid və sairləri T.Kərimlidən xəyanətkarlıq baxımından və ağıl dərəcəsində, bu qədərmi səviyyəsizdirlər ki, onların yerinə oğlunu göndərdin? Artıq AXCP-də monarxiya üsul-darəsi ayaq açaraq, yeriməyə başlayıb və biz Türkel Kərimlinin timsalında, bunun şahidinə çevrildik. Yox, belə deyilsə, onda Ə.Kərimli niyə, məhz oğlunu artıq neçənci dəfədir ki, bənzər tədbirlərə yollamasına aydınlıq gətirsin, çünki ictimai rəy dərhal cavab gözləyir. Məsələn, ictimai rəy cavab gözləyir ki, həm T.Kərimli, həm də A.Saakyan birağızdan Azərbaycan hakimiyyətinə qarşı çıxışlar edir, onların hər ikisi də ölkəmiz əleyhinə fikirlər səsləndirirlər. Ə.Kərimli bunu bilə-bilə hansı üzlə, məhz dinləmələr keçirilən gün Bakıda mitinq keçirib, "xalq", "dövlət", "demokratiya" və s. şüarlar səsləndirib, axırda da təxribatçılıq törətdi? Çünki bildiyimiz qədər, "Milli Şura"nın mitinqindən sonra növbəti bir neçə gənc AXCP sədrinin satqınçılıq siyasətinin girovunda buxovlandı. Niyə T.Kərimli onların sırasında yox idi, ya da olmamalı idi? Bunun əvəzində, T.Kərimli Azərbaycanın sağına-soluna döşədikcə, qardaşlığı Armen və erməni jurnalistləri ona əl çalır və alqışlar yağdırırdılar. Halbuki normal siyasətçi fərd düşmənlərinin də eyni dam altında olduğunu bildikdən sonra, ən yaxşı halda, ayağa qalxaraq öz etirazını bildirməli, ən pis halda isə, zalı tərk etməli idi. Amma biz nə etirazın, nə də zalı tərk etməyin şahidi olmadıq. Əksinə, düşmən kiçik Kərimlini alqışladıqca, o, daha da azğınlaşıb, hətta Bako Saakyanın oğlundan da betər şəkildə, Azərbaycana necə düşmən kəsildiyini nümayiş etdirib!

### Əli Kərimli separatçı ilə bir arada

Daha bir faktora diqqət yetirək və sual edək, separatçı ermənilər nə istəyirlər? Nəyə görə onlar Azərbaycan əleyhinə düzənlənmiş "dinləmələr" sirkinə bu sirkdə çıxış edən siyasi klounların təlxəklik nömrələrinə bu qədər maraq göstəriblər? Bunun cavabı kifayət qədər bəsitdir və hər halda, ortada ermənilərlə kərimlilərin bənzərlikləri mövcuddur. Məsələn, ermənilər on illərdir ki, Azərbaycana qarşı sanksiyaların tətbiq olunması yönündə dəridən-qabıqdan çıxırlar və Ə.Kərimli də, məhz bu cür edir. Ermənilər qondarma "DQR"in, davamlı olaraq, Azərbaycan Silahlı Qüvvələri tərəfindən atəşə tutulduğunu, "insanların öldüyünü" böhtan kimi ortaya atır, Ə.Kərimli də son aprel müharibəsindən sonra erməni prizmasından məlum çıxışlar edərək, erməni mediasının "qəhrəmanına" çevrildi. Ermənilər qondarma erməni soyqırımının tanınması istiqamətində ABŞ Konqresini, gecə-gündüz "atəşə tuturlar", Ə.Kərimli də qondarma erməni soyqırımının tanınması, o cümlədən, separatçı "DQR"in "müstəqil dövlət" statusunu alması üçün canfəşanlıq edən, Azərbaycana qarşı sanksiyalar tələb edən ermənipərəst konqresmen Ceyms Makqoverni, Tom Lantosu, nəzarətində olan "Azadlıq" saytında təbliğ, tərənnüm, reklam və mədh edir. Bəlkə belə deyil? Bu baxımdan, Ə.Kərimli satqın və xəyanətkar damğalı bir gədadır. Bu damğanı isə, o, heç zaman üzərindən ata bilməyəcək.

***Rövşən NURƏDDİNOĞLU***

# Əlilliyi olan şəxslər üçün 10 yeni peşə-sosial reabilitasiya mərkəzi yaradılacaq



Prezident İlham Əliyevin "Xüsusi qayğıya ehtiyacı olan uşaqlara və digər şəxslərə göstərilən sosial xidmətlərin genişləndirilməsi üçün əlavə tədbirlər haqqında" bu il iyunun 1-də verdiyi Sərəncam əlilliyi olan şəxslərin peşə-sosial reabilitasiya imkanlarının artırılması sahəsində də mühüm addımların atılmasına şərait yaradıb. Sərəncamın icrası çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişləri üzrə əlilliyi olan şəxslər üçün 10 yeni peşə-sosial reabilitasiya mərkəzinin yaradılması nəzərdə tutulur.

Nazirliyin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, mərkəzlərdə həmin kateqoriyadan olan vətəndaşların peşə-əmək reabilitasiyası, onların yeni peşə bacarıqlarına yiyələnmələri, özünüməşğulluğunun, əmək bazarına çıxışının dəstəklənməsi, habelə cəmiyyətə fəal inteqrasiya imkanlarına malik olmalarına şərait yaradılması istiqamətində işlər aparılacaq.

Hazırda nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun nəzdində 1 saylı Sağlamlıq imkanları məhdud gənclərin Peşə Reabilitasiya Mərkəzi fəaliyyət göstərir. Müasir tələblərə uyğun şəraitin yaradıldığı Mərkəzdə müxtəlif peşələrlə yanaşı, tətbiqi sənət növləri üzrə kurslar da fəaliyyət göstərir. Burada gənclərin sosial reabilitasiyasına, onlarda özünə, öz bacarığına güclü inam hissinin formalaşmasına, yaradıcılıq nümunələrinin cəmiyyətə tanıdılmasına yönəlik ardıcıl işlər aparılır.

# Azərbaycan və Bolqarıstanın Mədəniyyət nazirlikləri arasında əməkdaşlıq haqqında proqram imzalanıb



İyulun 4-də Mədəniyyət naziri Əbülfəs Qarayev UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Bolqarıstan Respublikasının Mədəniyyət naziri Boil Banov ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə Əbülfəs Qarayev qonağa ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, Azərbaycanın zəngin mədəni irsi haqqında geniş məlumat verib. Bildirib ki, ölkə mədəniyyətinin inkişafı və dünyada təbliği istiqamətində dövlət səviyyəsində fəal iş aparılır. Bu sahədə beynəlxalq əlaqələrin daha da inkişafına xüsusi önəm verilir. Ölkəmizə ilk dəfə səfər etdiyini deyən Bolqarıstanın Mədəniyyət naziri Boil Banov Azərbaycanın zəngin mədəniyyətə malik olduğunu söyləyib: "Bunun əyani sübutu kimi, Azərbaycanın UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına yüksək səviyyədə ev sahibliyi etməsini və göstərdiyi yüksək qonaqpərvərliyi qeyd edə bilərəm". İki ölkə arasındakı əlaqələrin inkişafından danışan bolqarıstanlı nazir Azərbaycanla mədəniyyət sahəsində daha sıx münasibətlərin qurulmasında, qarşılıqlı səfərlərin təşkil olunmasında maraqlı olduqlarını diqqətə çatdırıb. Daha sonra iki ölkənin Mədəniyyət nazirlikləri arasında 2019-2023-cü illər üzrə mədəniyyət sahəsində əməkdaşlıq haqqında proqram imzalanıb.

# "Gəncə hadisələrini gündəmə gətirməklə gərginlik yaratmaq istəyirlər"

***"Ötən il Gəncədə baş verənlər ölkəmizə qarşı yönələn bir hadisə idi ki, dövlətimiz həmin hadisələrin qarşısını yüksək səviyyədə almaqla yanaşı, cinayətkarlar öz cəzasına çatdı. Artıq həmin hadisədən 1 il ötüb. Amma radikal təxribatçı qüvvələr məsələni yenidən gündəmə gətirməklə cəmiyyətdə gərginlik yaratmağa çalışırlar". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Elman Məmmədov deyib.***

Baş verənlərin yenidən təkrarlanmasının mümkünsüzlüyünü ifadə edən deputat bildirib ki, Gəncə hadisələrini yenidən gündəmə gətirməklə nəyəsə nail olmaq boş söhbətdən başqa bir şey deyil.

E. Məmmədov Azərbaycan dövlətində, dövlətçiliyin qorunmasında qanunvericilik yüksək səviyyədədir: "Hər bir vətəndaşımızın hüququ qanunlar çərçivəsində yüksək səviyyədə qorunaraq, müdafiə olunur. Ölkəmizin müvafiq hüquq mühafizə orqanları üzərilərinə düşən vəzifəni çox yüksək səviyyədə, layaqətlə yerinə yetirirlər".



Azərbaycan Prezidenti İlham Əliyevin "mən hər bir vətəndaşın prezidentiyəm" fikirlərini xatırladan deputat vurğulayıb ki, ölkəmizdə Azərbaycan insanın hüquq və təhlükəsizliyi yüksək səviyyədə qorunur: "Bu gün kimlərsə, nəyə görəsə, xaricdən, daxildən dolayı yolla alıdığı cinayətkar maliyyə mənbələri hesabına ağzına gələni danışır və ya yazırsa, bu, həmin şəxslərin məkrli siyasətlərinin xəbərçisidir. Bu gün radikal qüvvələr xəyallarındakıları həqiqətdə görmək istəyirlər. Amma bu mümkün olmayacaq. Onların istəklərinin arxasında Azərbaycanda Liviya, İraq, Suriya, Əfqanıstan, Pakistan yaratmaqdır və buna görə, xarici qüvvələrdən maliyyə alırlar. Lakin onların heç zaman istəklərinə nail ola biləyəcəklər. Çünki bu gün Azərbaycan dövləti, dövlətçiliyi, hər bir bölgəsi və vətəndaşı qanunlarla güclü şəkildə qorunur".

***Nailə Məhərrəmova***

# Mübariz Əhmədoğlu: "Paşinyan Ermənistanın siyasi elitasının savad və səviyyə barometridir"

***Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu Paşinyanın məktubunun saxta çıxması, eyni zamanda, ATƏT-in Minsk Qrupunu münaqişənin həlli prosesdən uzaqlaşdırmağa yönəlməsi ilə bağlı açıqlamalarında bildirib ki, onun Qarabağın statusu ilə bağlı qərar vermək səlahiyyəti yoxdur: "Amma bu haqda danışır. Bəlkə də Paşinyan savadsız və yaxud məntiqsiz adam rolunu ifa edir. Onun həyat tərzində bunu görmək mümkündür. Paşinyanın Dağlıq Qarabağı Ermənistanın tərkibinə qatması ilə bağlı bəyanatları birmənalıdır.***



Həmin bəyanatları başqa variantda başa düşmək mümkün deyil. O, Ermənistanın baş naziri postunda, ən azı, 2 dəfə Dağlıq Qarabağı Ermənistanın tərkibində gördüyünü bəyan edib. Sonuncu bəyanatında Dağlıq Qarabağı Ermənistanın tərkibinə qatmağın yolunu axtardığını bildirdi. Əslində bu, Paşinyan hakimiyyətinin Qarabağın statusunun müəyyən olunmasına müdaxiləsidir. Dağlıq Qarabağın statusunu Ermənistan deyil, ATƏT-in Minsk Qrupu müəyyən etməlidir. Əgər Paşinyan statusu müəyyənləşdiribsə, danışıqlara və ATƏT-in Minsk qrupunun fəaliyyətinə ehtiyac qalmır".

Politoloq qeyd edib ki, N.Paşinyan Ermənistanın siyasi elitasının savad və səviyyəsinin barometridir: "Məsələnin digər tərəfi də diqqəti çəkir. Belə ki, Paşinyanın ATƏT-in Minsk Qrupunun nizamnaməsinə zidd bəyanatlarına vasitəçilər tərəfindən bugünədək heç bir reaksiya verilməyib. Bununla da, Minsk Qrupu həmsədrləri beynəlxalq hüquqa, özlərinin nizamnaməsinə, təmsil etdikləri dövlətlərə hörmətsizlik nümayiş etdirirlər. Əgər həmsədrlər özünəhörmət hissi ilə tanışdırlarsa, Dağlıq Qarabağ tənzimlənməsindən uzaqlaşmalıdırlar. ATƏT-in Minsk Qrupu Dağlıq Qarabağ probleminin tənzimlənməsində kömək üçün Azərbaycan Ordusuna müraciət etməklə, özünün imicinin daha da ləkələnməsinin qarşısını ala bilər".

M.Əhmədoğlunun sözlərinə görə, Paşinyanın verdiyi açıqlamaya görə isə, Ermənistana təqdim olunan layihədə Dağlıq Qarabağın statusu ilə bağlı aydın fikirlər olmasa da, ətraf ərazilərin Azərbaycana qaytarılması ilə bağlı maddələr çox aydındır. Məhz Mnasakanyan separatçı rejim rəhbərləri ilə görüşdə 2 məqamı diqqətdə saxlamışdı. Birincisi, Azərbaycan XİN rəhbəri və həmsədrlərlə görüşə gedərkən, Dağlıq Qarabağda da görüşlər keçirdiyini bildirməli və bununla da, məzmunlu danışıq tərəfdarı olduğunu göstərməli idi. Digər məqam isə odur ki, Mnasakanyan Ermənistanın çətin vəziyyətdə olduğunu bilir. Dağlıq Qarabağ rejimi liderlərinin mövqeyindəki hər hansı yumşalma Ermənistana yeni nəfəs verə bilər. Bəllidir ki, Dağlıq Qarabağ problemində irəliləyiş olmayanadək beynəlxalq aləm Ermənistana investisiya qoymayacaq. Paşinyanın blef resursu yaxınlarda bitəcək".

## Paşinyan planını həyata keçirə biləcəkmi?

M.Əhmədoğlu, Paşinyanın Dağlıq Qarabağdakı qondarma rejimə öz adamını rəhbər seçdirməsi ilə bağlı məsələyə münasibət bildirərək vurğulayıb ki, bu ona asan olmayacaq: "Bu gün Ermənistanda hakimiyyət dəyişikliyindən sonra nəzərlər gələn il qondarma "Dağlıq Qarabağ Respublikası"nda keçirilməsi planlaşdırılan "prezident seçkiləri"nə yönəlib. Belə ki, Ermənistanın baş naziri Nikol Paşinyan "prezident seçkiləri"ndə general Movses Akopyanın namizədliyini dəstəkləməyə hazırlaşır. Hazırda Ermənistanın baş hərbi müfəttişi olan Akopyan həmin "seçkilər"də şəxsən Paşinyanın və Yerevanın namizədi ola bilər. Erməni mediası yazır ki, Paşinyan general Vitali Balasanyan və onun ətrafında cəmləşən qruplaşmaya ancaq həmin qrupa qarşı çıxmaqdan çəkinməyən, onların təhdidlərinə boyun əyməyən birinin qalib gələcəyini başa düşür. Onu qeyd edək ki, general Movses Akopyan Dağlıq Qarabağda "müdafiə naziri" olub, daha sonra Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi təyin edilib. Lakin 2016-cı ilin aprel müharibəsindən sonra Akopyan da Müdafiə Nazirliyinin rəhbərliyində yer alan bir sıra generallarla birlikdə vəzifəsini itirib".

## Politoloqun sözlərinə görə, Ermənistanın indiki hakimiyyəti ilə "Qarabağ klanı"nın fikir ayrılıqları fonunda, Paşinyanın dəstəklədiyi Akopyan qondarma rejimin rəhbəri ola biləcəkmi?

İndidən nəyin baş verəcəyini demək çox çətindir: "Hesab edin ki, Qarabağ məsələsində Ermənistan daxilində bir neçə istiqamətdə narazılıqlar mövcuddur. Lakin bizdə elə düşünürlər ki, ancaq Paşinyanla "Qarabağ klanı" arasında narazılıqlar var. Əslində, elə deyil. "Qarabağ klanı"nın içərisində, eləcə də, Dağlıq Qarabağda yerli qondarma qurumun rəhbərliyində narazılıqların olduğu bəllidir. Qondarma rejimin rəhbərliyinə Samvel Babayan, Jirayr Sefilyan iddialıdır. Jirayr Sefilyan "Dağlıq Qarabağ"ın Qərbə tərəf meyillənməsinə çalışır. Samvel Babayan qondarma rejimi Rusiyaya tərəf çəkmək istəyir. Bako Saakyan elə adamı rəhbərliyə gətirmək istəyir ki, bu şəxs sonradan Samvel Babayanın taleyini yaşamasın, yəni onu həbs etməsinlər. Əslində, buradan bəlli olur ki, çoxlu sayda proseslər baş verir. Eyni zamanda, Paşinyan Bako Saakyana təsir edir ki, filankəsi işdən çıxart, uzaqlaşdır, filankəsi kiminsə yerinə təyin et və sair. Ermənistanın özünün də daxilindən bu proseslərə qoşulmaq niyyətində olanlar var. Misal üçün, Artur Aqabekyan daşnakdır və uzun müddət Ermənistan parlamentində müdafiə və təhlükəsizlik komissiyasının sədri olub. Sonra "Dağlıq Qarabağ"da baş nazirin müavini idi, amma faktiki olaraq, Qarabağı o, idarə edirdi. Artur Aqabekyanın kifayət qədər maliyyəsi var, eləcə də, iki-üç silah zavodunun rəhbəridir. Bu, artıq Ermənistanda yaşayan ermənidir, lakin Aqabekyan "Dağlıq Qarabağ"ın rəhbərliyinə iddialıdır. Ona görə də indidən həm narazılığı bəsit göstərmək düzgün deyil, həm də nəyin necə baş verəcəyini proqnozlaşdırmaq çox çətindir".

M.Əhmədoğlu bildirib ki, Ermənistanın xüsusi xidmət orqanlarının baş nazir Nikol Paşinyanın sosial şəbəkələrdə yayılmış saxta məktubunun müəllifini axtarışına bu məsələ diqqət mərkəzindədir. NATO-nun baş katibi Yens Stoltenberqə ünvanlanmış məktubda Ermənistan hökumətinin başçısı guya Şimali Atlantika Alyansı ilə daha sıx əməkdaşlığa hazır olduğunu və Dağlıq Qarabağ münaqişəsinin bunun qarşısında ən böyük əngəl təşkil etdiyini bildirir. O, bu kontekstdə guya ilin sonunadək "erməni qoşunlarını Dağlıq Qarabağdan çıxaracağını" vəd edib. Saxta məktubda Ermənistan qoşunlarının münaqişə zonasından çıxarılacağı və Dağlıq Qarabağın Azərbaycanın nəzarətinə veriləcəyinə dair ümumxalq referendumu keçiriləcəyi barədə fikirlər də yer alıb.

Bu feyk məktubu ilk dəfə informasiya təhlükəsizliyi üzrə ekspert Samvel Martirosyan aşkar edib. O bildirib ki, yüksək ehtimalla məktubun mətni Ermənistanın hüdudlarından kənarda hazırlanıb. Ermənistan milli təhlükəsizlik xidmətinin mətbuat katibi Samson Qalstyan isə, bu vəziyyəti şərh etməkdən imtina edib.

Qeyd edək ki, Paşinyanın mətbuat katibi də bu məsələ ilə bağlı jurnalistlərin suallarını cavablandırmayıb.

***R.HÜSEYNOVA***

# İnqilabın Ermənistanda yaratdığı krizis



Ermənistanda inqilabçıların komandası krizis keçirir. SİA xəbər verir ki, bu barədə Ermənistana məxsus 1in.am saytında qeyd olunur.

Saytda xüsusilə vurğulanır ki, fikir ayrılıqları bir çox hökumətlər daxilində ola bilər və bunu normal təzahür kimi də qəbul etmək lazımdır, çünki əks halda krizis qaçılmazdır. Lakin fikir ayrılıqları üçün alternativ və proqram komponentləri olmalıdır. Əks təqdirdə bunlar intriqaları xatırladır və heç də yaxşı nəticələr vəd etmir. Hətta çox pis nəticələrə gətirib çıxarır.

Fikir ayrılıqları, plüralizm sağlam o zaman hesab olunur ki, onun arxasınca siyasi, yaxud sistemli qərarlar gəlir. Ermənistanda isə bu belə inqilaba qədər heç zaman olmayıb, inqilabdan sonra da belə deyil. Paşinyanın isə bu vəziyyətdə günahı ondan ibarətdir ki, inqilabı ayrı-ayrı qruplar özlərinə "çəkirlər" hansı ki, heç bir aidiyyəti belə yoxdur və meydanda doğulan Ermənistan Respublikasında vətəndaşlar özlərini günü-gündən yad hesab edirlər. Baş nazirin populist yanaşmaları ilə hakimiyyət vətəndaşları bir az da özündən uzaqlaşdırır ki, bu da hakimiyyət, eyni zamanda Ermənistan üçün krizis deməkdir.

***İnam Hacıyev***

# "Ermənistan ABŞ-a özünü göstərmək üçün davranışını dəyişib"



"Azərbaycan Ermənistandan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair sülh istiqamətində addımlar atmasını gözləyir. Bu yol BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin icrası ilə bağlıdır". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Asim Mollazadə deyib.

O bildirib ki, Ermənistan ilk növbədə öz silahlı qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərindən geri çəkməli və bu istiqamətdə zəruri addımlar atmalıdır. Deputatın sözlərinə görə, bu addımlar hər iki tərəfi sülhə yaxılaşdıra bilər, gələcəkdə ciddi qərarların qəbul olunmasına şərait yaradır.

Son günlər təmas xəttində sabitliyin hökm sürdüyünü deyən A. Mollazadənin fikrincə, buna səbəb ABŞ-da Azərbaycan və Ermənistan XİN başçıları arasında aparılan danışıqlar ola bilər: "Danışıqlar nəticələr verməlidir. Əks halda, hazırki vəziyyət gərginləşə bilər və bölgədə stabillik pozula bilər. Ermənistan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində təxirə salınmaz addımlar atmalıdır. Bəlkə də Ermənistan Vaşinqton görüşündən sonra ABŞ-a sülh tərəfdarı olduğunu göstərmək istəyir. Ona görə də bu görüşdən sonra davranışı dəyişib".

Deputat hazırki sabitliyin arxasında Ermənistan tərəfindən növbəti təxribatın dayanmasını da istisna etmir: " İşğal olunmuş ərazilərimizdə qoşun varsa, bu baxımdan istənilən zaman təxribatın olması gözləniləndir". A. Mollazadə qeyd edib ki, Ermənistan beynəlxalq ictimaiyyətin fikrini dəyişmək üçün müxtəlif yollara əl ata bilər: "Çünki Ermənistanda indiyədək aparılan siyasət dəyişməz olaraq qalır".

***Nailə Məhərrəmova***



# Sarkisyan Paşinyana qalib gəldi

Armen Sarkisyan reytinq cədvəlində ilk dəfə Nikol Pashinyanı qabaqlayıb. SİA Ermənistana məxsus "Qraparak" qəzetinin yazdığına istinadən xəbər verir ki, Beynəlxalq Respublikaçılar İnstitutu bu yaxınlarda Ermənistanda keçirdiyi ictimai rəy sorğusunu, həmçinin tədqiqatın nəticələrini keçən həftə yekunlaşdırıb və hələ də ictimaiyyətə açıqlanmayan məlumatları bir sıra dövlət qurumlarına çatdırıb.

Yazıda qeyd olunur ki, Paşinyanın reytinqi 52 faiz təşkil edib. Məsələ burasındadır ki, Armen Sarkisyanın reytinqi baş nazirin reytinqindən daha çoxdur və 61 faizlə o reytinq cədvəlində Paşinyana qalib gəlib.

***İnam Hacıyev***

# Ermənistan uçurumun astanasında

## Paşinyan rejimi növbəti çevrilişlə yola salına bilər









***Ermənistanda mövcud ağır durum hər ötən gün daha da ağırlaşır. Küçə demokratı Nikol Paşinyanın seçki ərəfəsi verdiyi iddialı vədlərini reallaşdıra bilməməsi, onsuz da ağır olan ölkədaxili iqtisadi-siyasi durumu bir qədər də gərginləşdirib.***

Bu problemlərlə yanaşı Ermənistanda keçirilmiş seçkilərdən sonra, hakimiyyət nümayəndələri ilə yanaşı, parlamentə rüşvətvermə yolları ilə düşməyi bacarmış hakimiyyətyönlü müxalifətçilər arasında da, qızğın qalmaqallara start verilib. Misal üçün, “Haykakan Jamanak” qəzeti yazır ki, onların əldə etdiyi informasiyaya görə, hakimiyyətyönlü müxalifət - “Tsarukyan” blokunda daxili qarşıdurmalar baş qaldırıb.








Buna səbəb, parlamentdə vitse-sədr postunu tutmaq uğrunda aparılan amansız mübarizədir. Belə ki, yeni seçilmiş parlamentdə iki vitse-prezidentdən biri müxalifəti təmsil etməlidir. “Ermənistanın baş naziri Nikol Paşinyan yeni problemlə toqquşub - “xalqın baş nazirinə” qarşı sui-qəsd təhlükələri yaranıb, ancaq müxalifət, ya da xarici oyunçular tərəfindən deyil, şəxsi komanda üzvlərindən”. Bu barədə “Vestnik Kavkaza”nın analitik bölümündəki “Üç otaq sui-qəsdinin” sirri: Paşinyanı öz adamları devirəcək?” başlıqlı məqaləsində yazılıb. “Bu barədə Paşinyanın yaxınlarda keçirdiyi və 4,5 saat davam edən mətbuat konfransında məlum olub”, analitik şərhdə qeyd edilir. SİTAT: “Paşinyan, birbaşa bəyan edəndə ki, ona qarşı aparılan danışıqların hansı üç otaqda aparıldığını bilir, jurnalistlər belə qərara gəldilər ki, söhbət Koçaryan-Sarkisyan klanının təmsilçilərindən gedir, bundan əlavə, baş nazir zarafat edərək, həmin otaqların beş olacağını da deyib, “üç” ədədinin isə, sadəcə, simvol olduğunu bildirib. Onda birinci otaq - Koçaryanın adamları, ikinci otaq Sarkisyanın, üçüncüsü isə, çox yəqin, Ermənistanın hazırkı prezidenti Armen Sarkisyanındır, hansı ki, o, burada “coker” rolunu oynamağa cəhd edir”.

### Ermənistanı növbəti qanlı iğtişaşlar gözləyir

“Başqa mülahizə də var: Paşinyan öz tərəfdarlarını nəzərdə tuta bilər. Hansı ki, o adamlarına hakimiyyətdə cavabdehlik daşıyan postlar paylayıb, mətbuat konfransı isə ona görə təşkil edilib ki, baş nazir burada zəif olmadığını göstərməyə və hakimiyyət daxilində sui-qəsdlərin baş verəcəyinə, hakimiyyətini laxlatmağa imkan yaradılmayacağını göstərməyə çalışıb” deyə yazan nəşr əlavə edib ki, bu zaman “üç otaq” Milli Təhlükəsizlik Xidmətinin rəhbərinin komandası Artur Vanetsyana, de-fakto baş nazir Tiqran Avinyanın və müdafiə naziri David Tonoyanın ətrafına aiddir. “Onların hər biri öz təsirlərini artırmağa cəhd edir ki, bu da, Paşinyanı özündən çıxarır” deyə məqalədə qeyd olunur. SİTAT: “Özəlliklə, Tiqran Avinyan tipik “boz kardinal” oyununu oynayır - Paşinyandan azad olan şəxsi komandasını hazırlayır və müxalifətlə daha güclü ittifaq təşkil edir. Artur Vanetsyan daha uzağa gedir: böyük siyasətə daxil olmaq üçün o, parlamentin vitse-spikeri Alen Simonyanla ciddi iş aparır. Qəzetin mənbəsinin məlumatına görə, artıq dövlət çevrilişinin ilkin ssenarisi var: əgər Paşinyan devrilərsə, bu zaman Vanetsyan baş nazir, Simonyan isə MTX-nin rəhbəri olacaq”.

### Paşinyanın siyasi intiharı reallaşır

MTX-nin peşəkar imkanlarını nəzərə alsaq, ABŞ görüşündən sonra girovların dəyişdirilməsində ilkin addımlar atılsa da, cəbhədə vəziyyət gərgin olaraq qalmaqdadır. Yəni cəbhədəki sakitliyin nisbi xarakter daşıdığı qənaəti yaranır. Nikol Paşinyan hökuməti sələflərindən fərqli olaraq, münaqişəni nizamlamaq əvəzinə, müharibə ritorikasına üstünlük verir, təxribat xarakterli, qarşı tərəfdə qıcıq yaradacaq addımlar atmaqla,danışıqlar prosesinə tormozlayıcı təsir göstərir. Ermənistanda ağır hakimiyyətdaxili durumu münaqişənin həllinin uzanmasına təkan verən amillərdəndir. “Vestnik Kavkaza” “İrates”dəki yazıdan nəticə çıxararaq qeyd edir: “Nikol Paşinyan hakimiyyətdəki mərkəzi prosesləri özü idarə etməyə çalışır, belə ki, son zamanlar müstəqil qərarlar qəbul etmək üçün çətinliklər yaranıb -göstərici mətbuat konfransı və güc nümayişi də bunu ehtiva edir. Eyni zamana, istisna etmək olmaz ki, baş naziri anti-Paşinyan qruplaşmalarının durmadan artması narahat edir, ona görə də, o, “otaqların” üçdən çox olmasına da işarə edib. Sözsüz, bu gün növbəti dəyişikliklər hələ realizə ediləcək deyil, çünki ictimaiyyət əvvəlki kimi öz “inqilabçı liderinə” inanır - lakin bir il sonra vətəndaşların həyatları ciddi şəkildə dəyişilməsə, Paşinyanın reytinqi düşəcək və onda sui-qəsdlərin həyata keçirilməsi və dövlət çevrilişlərinin baş verməsi üçün yol açıq olacaq”.

**Rövşən NURƏDDİNOĞLU**

## YAP Nəsimi rayon təşkilatı gənclər birliyi “Aztəminatlı ailələrə qayğı” aksiyasına qoşulub



***Dünən Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı gənclər birliyinin üzvləri Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə həyata keçirilən “Aztəminatlı ailələrə qayğı” aksiyasına qoşularaq, rayon ərazisində yaşayan yardıma ehtiyacı olan aztəminatlı və şəhid ailələrinə sovqatlar paylayıblar.***

YAP Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı bildirib ki, ölkəmizdə kimsəsiz, qayğıya ehtiyacı olan insanlara dövlətimiz tərəfindən daim diqqət ayrılıb. Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan siyasətin Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edərək, bütün sahələrdə olduğu kimi, həyata keçirilən uğurlu sosial siyasətin nəticəsində, həssas qruplar kimi, tənha, ahıl, əlil vətəndaşların da rifah halının yaxşılaşdırılmasına, ildən-ilə gücləndirilməsinə səbəb olduğunu bildirdi: “Bu, bir faktdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ölkədə həyata keçirilən sosial siyasətin əhalinin sosial müdafiəsinə, xüsusilə də, aztəminatlı ailələrin həyat səviyyəsinin yüksəldilməsinə geniş imkanlar yaradıb. Əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ünvanlı sosial yardım proqramlarının məqsədyönlü tətbiqi nəticəsində, ölkəmizdə yoxsulluq səviyyəsinin azaldılmasına müsbət təsir göstərib”. M.İbrahimqızı YAP-ın siyasi deyil, həm də, humanitar və xeyriyyə aksiyalar keçirdiyini diqqətə çatdırıb: “YAP Nəsimi rayon təşkilatı da, mütəmadi olaraq, bu aksiyalara qoşulur. Rayon təşkilatı Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədovun orduya dəstək çağırışına ilk qoşulanlardandır. YAP dəfələrlə belə aksiyalar keçirib. YAP-ın təşəbbüsü ilə həyata keçirilən “Aztəminatlı ailələrə qayğı” aksiyasına YAP Nəsimi rayon təşkilatı gənclər birliyinin fəalları da qoşulub”.



Rayon təşkilatının fəal gəncləri rayon ərazisində yaşayan imkansız və şəhid ailələrinə baş çəkərək, sovqatları təqdim etməklə yanaşı, onların problemləri ilə də maraqlanıblar. Xatun Əliyeva, Nurcahan Səfərbəyova, Sona Cəfərova, Çingiz Rzayev və başqaları onlara ayrılan bu diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

*Nəzakət ƏLƏDDİNQIZI*

## “Nar” gənc şahmatçılara dəstək olur

***Uşaqların məntiqi təfəkkürünün inkişafına töhfə vermək məqsədilə “Nar” iyulun 2-dən 10-dək Bakıda baş tutan Şahmat üzrə Bakı yay festivalı çərçivəsində keçiriləcək uşaq turnirinə dəstək olur. Qeyd edək ki, turnirə 74 şahmatçı qeydiyyata alınıb. Yeddi tur İsveçrə sistemi üzrə yarışın nəticələrinə görə, qaliblər həm pul mükafatı, həm də “Nar”dan xüsusi mükafatlar qazanacaqlar.***




Festivalda şahmatçılar 5 müxtəlif turnirdə mübarizə aparacaqlar. “Bakı yay festivalı” çərçivəsində Azərbaycanda ilk dəfə beynəlxalq qrossmeyster və beynəlxalq usta normalı paralel yarışlar da keçiriləcək. Yarışda 14 Azərbaycan və Gürcüstan, İran, Türkiyə, Rusiya, İraq və Belarusda da daxil olmaqla, 10 xarici şahmatçı iştirak edəcək. Start siyahıda 6 qrossmeyster, 4 beynəlxalq usta və 9 FIDE ustası yer alıb.

“Nar” gənclərə və idmana yönəlik korporativ sosial məsuliyyət (KSM) strategiyasına uyğun olaraq, müxtəlif sosial layihələr həyata keçirir. “Nar”ın KSM strategiyası haqqında daha ətraflı www.nar.az saytından əldə edə bilərsiniz.

## Birinci rübdə dəmir yolu ilə beynəlxalq istiqamətlərdə 2 milyon tonadək yük daşınıb

Cari ilin birinci rübündə dəmir yolu ilə beynəlxalq istiqamətlərdə (idxal-ixrac) 1 milyon 820 min ton yük daşınıb. “Azərbaycan Dəmir Yolları” QSC xəbər verir ki, 3 ayda dəmir yolu nəqliyyatı ilə Azərbaycandan tranzit keçməklə 939 min ton, daxili istiqamətlərdə isə 781 min ton yük aparılıb. Yanvar-mart aylarında dəmir yolu ilə ümumilikdə 3 milyon 540 min ton yük daşınıb.

## “Səfəvi Şeyxi” romanının təqdimatı keçirildi



***Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda yazıçı-publisist, dramaturq, tarixçi-alim Yunus Oğuzun “Səfəvi Şeyxi” tarixi romanının təqdimatı keçirilib.***

Tədbirdə tanınmış ictimai-siyasi xadimlər, elm və ədəbiyyat adamları, millət vəkilləri, media nümayəndələri iştirak edib.

Tədbiri giriş sözü ilə AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli açaraq, Yunus Oğuzun çağdaş Azərbaycan ədəbiyyatındakı mövqeyindən danışıb. Onun son illərdə çap olunan tarixi romanlarının ədəbi ictimaiyyətdə doğurduğu əks-səda haqqında fikirlərini bölüşüb. Yeni çap olunan “Səfəvi Şeyxi” tarixi romanının da ədəbiyyatsevərlər tərəfindən maraqla qarşılanacağını bildirib.




Daha sonra Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov, millət vəkili Elman Nəsirov, “525-ci qəzet”in baş redaktoru Rəşad Məcid, filologiya üzrə fəlsəfə doktoru Lalə Həsənova, millət vəkili Nizami Cəfərov, filologiya üzrə fəlsəfə doktoru Elnarə Qaragözova, Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu, yazıçı Elçin Hüseynbəyli kitab haqqında danışıblar.

Sonda müəllif Yunus Oğuz çıxış edərək, tədbirin təşkili üçün əziyyəti keçən hər kəsə təşəkkürünü bildirib.

*NƏZAKƏT*

## YAP Yasamal rayon təşkilatının gənclər birliyi “Aztəminatlı ailələrə qayğı” aksiyasına qoşuldu

***Dünən Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatı gənclər birliyinin üzvləri Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə həyata keçirilən “Aztəminatlı ailələrə qayğı” aksiyasına qoşularaq, rayon ərazisində yaşayan və yardıma ehtiyacı olan kimsəsiz, imkansız, aztəminatlı, tənha ailələrə ərzaq bağlamaları paylayıblar. Yeni Azərbaycan Partiyası müxtəlif tədbirlər və xeyriyyə aksiyaları həyata keçirir. Hər zaman olduğu kimi, bu dəfə də keçirilən bu aksiya partiyanın yaşlı, ahıl insanlara qayğı və ehtiram göstərilməsinin daha bir nümunəsidir.***





Fəal gənclər bir neçə ailəyə baş çəkərək, sovqatları paylamaqla yanaşı, onların problemləri ilə də yaxından tanış olublar. Gözdən əlil olan Xalidə Bağırova, Bəyim Zahidova, imkansız ailələrdən olan Gülzar Əzizova, I qrup əlil Arzu Pirimova və başqaları göstərilən maddi və mənəvi köməyə görə, öz minnətdarlıqlarını bildiriblər. Qeyd olunub ki, diqqət və qayğını öz üzərlərində hər zaman hiss ediblər. Bu aksiya bu günə qədər həyata keçirilən tədbirlərin davamıdır. Ölkəmizdəki əmin-amanlıqdan, firavan və sabit həyatdan razılıqlarını ifadə ediblər.

*Nəzakət ƏLƏDDİNQIZI*

## Bakıda “Mstislav Rostropoviç - UNESKO-nun xoşməramlı səfiri və xeyriyyəçi insan” adlı tədbir keçiriləcək

İyulun 5-də L. və M.Rostropoviçlərin ev-muzeyində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində “Mstislav Rostropoviç - UNESKO-nun xoşməramlı səfiri və xeyriyyəçi insan” adlı tədbir keçiriləcək. AZƏRTAC xəbər verir ki, tədbirdə klassik musiqi əsərlərindən ibarət konsert olacaq. Bununla yanaşı, M.Rostropoviçin həyat və yaradıcılığında xeyriyyəçilik fəaliyyəti, xoşməramlı səfir kimi gördüyü işlərə aid fotolardan ibarət sərgi və slayd-şou nümayiş olunacaq.



# Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

***Hər bir cəmiyyətin əsas azadlıqları, daha dəqiq desək, fikir, söz və məlumat azadlıqları mətbuatdan başlayır. Çünki dövrün gerçək təsvirini vermək kimi mühüm bir missiyanı mətbuat yerinə yetirir. Bu baxımdan, mətbuat cəmiyyəti olduğu kimi təsvir edən bir güzgüdür ki, bu güzgü cəmiyyətin bütün həqiqətlərini özündə əks etdirir. Mətbuatın tərəfsiz olaraq cəmiyyətə xidmət etməsi isə bu güzgünün şəffaflığını, nəticədə, cəmiyyətin fikir, söz və məlumat azadlığını şərtləndirir.***

Plüralist cəmiyyətin yetişməsi üçün fikir, söz, məlumat azadlığı kimi insan azadlıqlarının nə qədər vacib məsələ olduğu şübhə doğura bilməz. Çünki daim tərəqqiyə can atan insan fikir, söz, məlumat azadlığı olmadan tərəqqiyə nail ola bilməz.

Latınca "plüralis" sözündən olub "çoxluq" mənasını bildirən plüralizm ictimai-siyasi həyatda daim yarışda, rəqabətdə və mübarizədə olan, sosial, siyasi qrupların, partiyaların, təşkilatların, ideyaların və baxışların çoxluğu deməkdir. Plüralizm cəmiyyətdə normal sosial-siyasi münasibətlərin dirçəlmə meyillərinin inkişafını stimullaşdırır və proseslərin nəzarətə məruz qalmadan sərbəst və müstəqil şəkildə inkişafını təmin edir.

Plüralizm sosial qrup və təbəqələrin müxtəlifliyi şəraitində formalaşır. Çoxpartiyalılıq, hakimiyyətin müxtəlif muxtar mərkəzlərə bölünməsi, yerlərdə özünüidarənin inkişafı və "dördüncü hakimiyyətin" - həqiqi müstəqil mətbuatın olması plüralizmdir.

İnsan hüquq və azadlıqlarının ayrılmaz hissəsi olan söz, fikir, ifadə azadlığı, plüralizm və bunların təmini hər bir ölkədə demokratiyanın nə dərəcədə inkişaf etdiyinin və demokratik təsisatların nə dərəcədə uğurlu işləməsinin göstəricisidir. Təsadüfi deyil ki, hüquqi dövlət quruculuğu və demokratiyanın ölçülməsində də bu hüquq və azadlıqlar əsas indikatorlardan biri sayılaraq bir çox indekslərdə istifadə olunur və ölkədə azad medianın, insan hüquq və azadlıqlarının müdafiəsinin demokratik mexanizmlərinin mövcudluğunun əsas şərtlərindən biri kimi qəbul edilir.

Hal-hazırda ölkəmizdə hər kəsin müstəqil fikir bildirmək, istənilən məsələyə mövqe sərgiləmək imkanı varsa, deməli, Azərbaycanda fikir, söz və məlumat azadlığı, plüralizm yüksək səviyyədədir. Sözsüz ki, bu azadlıqlar, bu plüralizm dövlətin diqqət və qayğısı, yaradılan şərait sayəsində formalaşıb. Müstəqil medianın inkişafına dövlət dəstəyi söz və fikir azadlığının yaranmasını şərtləndirir və sözsüz ki, bu baxımdan da, plüralizmin inkişafında dövlətimizin rolu danılmazdır.

## Azad sözün və milli mətbuatın inkişaf tarixi

İnsanların müstəqil düşüncə ifadə etmək arzusu, ilk növbədə, fikir, söz və məlumat azadlıqları ilə gerçəkləşir və cəmiyyətdə fikir müxtəlifliyinə, həqiqəti üzə çıxarmağa imkan yaradır. Azərbaycan xalqının fikir, söz, mətbuat azadlığı uğrunda mübarizəsinin dərin tarixi vardır. Xalqımızın ədəbi həyatına aid yazılar ilk dəfə XIX əsrin ikinci onilliyindən başlayaraq Tiflisdə çıxan "Tiflisskiye vedomosti", "Kavkaz", "Zakavkazskiy vestnik", "Novoye obozreniye" və başqa rus qəzetlərində dərc olunurdu. Azərbaycan dilində nəşr olunan ilk qəzet "Tiflis əxbarı" qəzeti idi ki, 1832-ci ildən Tiflisdə nəşr olunmağa başlamışdı.

Əlbəttə ki, Azərbaycan həqiqətlərinin işıqlandırılması, xalqın maarifləndirilməsi kimi müqəddəs missiyanı bu qəzetlərin yerinə yetirməsi çarizmin ideoloji-siyasi təsiri altında mümkünsüz idi. Məhz bu səbəbdən də, Azərbaycanın o dövrdə yaşamış ziyalıları, görkəmli şəxsiyyətləri milli mətbuatın yaradılması üçün uzun illər mübarizə aparmalı oldular. Bu mübarizənin də məntiqi nəticəsi olaraq, görkəmli ədib və ziyalı Həsən bəy Zərdabinin təsisçiliyi və baş redaktorluğu ilə 1875-ci il iyulun 22-də Azərbaycanın ilk mətbu orqanı - "Əkinçi" qəzeti nəşr olunmağa başladı.



Bu nəşrin işıq üzü görməsi sıradan bir hadisə deyildi, çünki "Əkinçi" qəzeti ilə Azərbaycan milli mətbuatının əsası qoyuldu. Heç də təsadüfi deyil ki, Azərbaycanda hər il 22 iyul tarixi Milli Mətbuat Günü kimi qeyd olunur. Lakin təəssüflə qeyd etmək lazımdır ki, "Əkinçi" qəzeti işıq üzü görsə də, belə çarizm ideologiyası həmin dövrdə insanların fikir və söz azadlığına imkan vermirdi. "Əkinçi" qəzetinin nəşrindən bir neçə onilliklər sonra Azərbaycanda Xalq Cümhuriyyəti hakimiyyətinin qurulması ölkədə fikir, söz, mətbuat azadlığı üçün münbit şərait yarada bildi. Lakin bu hakimiyyətin, bu müstəqilliyin də ömrü uzun olmadı və cəmi 23 ay çəkən bu azadlığın ardınca Azərbaycan mətbuatı bu dəfə sovet ideologiyasının təsirlərinə məruz qalmalı oldu. Milli mətbuatımız 70 il sürən Sovetlər Birliyi dönəmində sovet ideologiyasını təbliğ etməyə məcbur edildi.

Ötən əsrin 90-cı illərinin sonlarında Sovetlər Birliyinin süqut etməsilə, Azərbaycanda təkcə milli müqavimət hərəkatı deyil, ölkənin mətbuatında da görünməmiş dönüş yarandı. Əhəmiyyətli dərəcədə kəmiyyət və keyfiyyət dəyişiklikləri inqilabi dönüş olduğunu təsdiqləyirdi. Həmin dövrdə birdən-birə çoxlu sayda azad fikirli qəzetlərin yaranması və uğurlu fəaliyyəti ölkəmizdə əsl evolyusiyadan xəbər verirdi. Müstəqilliyinin bərpasından sonra senzuraların ləğv olunması ilə Azərbaycan mətbuatı özünün azad dönəminə qədəm qoydu.

## Fikir, söz və məlumat azadlığı istiqamətində qəbul olunan normativ hüquqi aktlar əldə olunan nailiyyətləri şərtləndirir

Ötən əsrin sonlarından, daha dəqiq desək, 1991-ci ildə müstəqilliyin əldə edilməsindən bu vaxta qədərki zaman fasiləsində Azərbaycanda söz və fikir azadlığı istiqamətində olan keyfiyyət dəyişiklikləri çox böyük nailiyyətlərdən xəbər verir. Bir-birinin ardınca qəbul olunan normativ-hüquqi aktlar isə əldə olunan nailiyyətləri şərtləndirir desək, yanılmarıq. Müstəqilliyin bərpasından sonra, Ümummilli Lider Heydər Əliyevin 1998-ci il 18 iyun tarixində imzaladığı Sərəncamla təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı", eləcə də, həmin il 6 avqust tarixində imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman ölkədə fikir, söz, mətbuat azadlığına əlverişli şərait yaradan ilk normativ aktlardır. Fikir, söz, mətbuat azadlıqlarının təminatına əlverişli şərait yaradan bu sənədlər Müstəqil Dövlətlər Birliyi məkanında, ilk olaraq, Azərbaycanda senzuranı ləğv etdi. Dövlətin mətbuat üzərində nəzarətinə isə 2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyinin ləğv olunması ilə birdəfəlik son qoyuldu.

Sonrakı dövrlərdə bir-birinin ardınca, "Kütləvi informasiya vasitələri haqqında", "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında", "Məlumat azadlığı haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında" Azərbaycan Respublikası qanunlarının qəbul olunması cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə, fikir, söz, mətbuat azadlığına öz töhfələrini verdi və əsas insan azdlıqlarının bugünkü yüksək səviyyəyə çatmasına əsaslı zəmin yaratdı. Ulu Öndərin 2000-ci il 6 mart tarixli Sərəncamı ilə təsdiq edilən "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üçün Tədbirlər Proqramı" isə kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının gücləndirilməsində mühüm rol oynamaqla yanaşı, mətbuatın inkişafına stimul verdi.

"Bizim dövlət siyasətimizin əsas məqsədlərindən biri Azərbaycanın mütərəqqi mətbuat ənənələrinin davam etdirilməsi və müasir beynəlxalq təcrübə ilə zənginləşdirilməsi, KİV-in maddi-texniki vəziyyətinin yaxşılaşdırılması, onların imkanlarından respublikada hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşdırılması və inkişafı, demokratik islahatların həyata keçirilməsində səmərəli istifadə edilməsindən ibarətdir" deyən Ümummilli Lider Heydər Əliyev azad mətbuatın inkişafına çox böyük diqqət göstərib. Çap mətbuatının dövlət nəşriyyatına olan borclarının silinməsi isə fikir, söz və mətbuat azadlığının inkişafında dövlətin bilavasitə maraqlı olduğunun bariz nümunəsidir.

## Prezident İlham Əliyevin jurnalistləri özünün köməkçisi adlandırması ölkədə plüralizmin və söz azadlığının göstəricisidir

Fikir, söz və məlumat azadlığının, mətbuatın inkişafına dövlətin bilavasitə qayğısı və dəstəyi bu gün də davam etdirilir. Cəmiyyət bunu mətbuata göstərilən dövlət qayğısının ən müxtəlif təzahürlərində hiss edə bilir. Cənab Prezident İlham Əliyev bir çox çıxışlarında jurnalist əməyini yüksək qiymətləndirdiyini bildirib. Ölkə başçısının iradəsi ilə bu günə kimi 400 nəfərdən artıq jurnalistin dövlətdən mənzil alması heç də təsadüfi deyil, əksinə, dövlətin, dövlət başçısının milli mətbuatımıza qayğısının təzahürüdür. Bu diqqət, bu qayğı hələ də davam etdirilir və mətbuat işçiləri, jurnalistlər üçün nəzərdə tutulan binaların tikintisi, onlara təhvil verilməsi bununla bitməyib.

Jurnalistlər üçün inşa olunan ikinci binanın açılışında jurnalist əməyinin cəmiyyətdəki rolu barədə danışan dövlət başçısı mətbuat işçilərini, jurnalistləri hətta özünün köməkçisi adlandırıb. Cənab Prezident öz nitqində bildirib ki, bəzi hallarda hansısa xoşagəlməz hadisə ilə bağlı məlumatı mətbuatdan əldə edir: "Düzdür, mənə müxtəlif mənbələrdən hər gün müxtəlif məlumatlar gəlir. Yəni əlbəttə ki, mənə həm xarici, həm daxili siyasətlə, həm də təhlükəsizlik məsələləri ilə bağlı əsas məsələlər məruzə edilir. İnsanları narahat edən məlumatlar haqqında mən mətbuatdan da xəbər tuturam, dərhal reaksiya verirəm. Dövlət məmurları və yaxud digər şəxslər, qüsurlara yol verən şəxslər bilirlər ki, Azərbaycanda söz və mətbuat azadlığı imkan verməyəcək ki, onlar işdə hansısa qüsurlar buraxsınlar. Ona görə, jurnalistlər bəlkə də özləri də bilmədən mənim köməkçilərimdir".

Ölkədə plüralizmin və söz azadlığının hansı səviyyədə olduğunu və Azərbaycan mətbuatının özünün bütün problem və uğurları ilə dövlət başçısının diqqət mərkəzində olduğunu ölkə başçısının dilindən səslənmiş bu fikirlər tam şəkildə ifadə edir. Etiraf etmək lazımdır ki, fikir, söz və məlumat azadlığının, ölkədə mətbuatın üstün səviyyəsi, bu sahəyə göstərilən diqqət və qayğı, şəxsən Cənab Prezident İlham Əliyevin mətbuata həssas münasibəti xarici mətbuatın da diqqətindən yayınmır. Rusiya Jurnalistlər Birliyinin sədri Vladimir Solovyovun Cənab Prezidentin qəbulunda olan zaman İlham Əliyevin mətbuatı şəxsən izlədiyini hiss etdiyini dilə gətirməsi, hətta onun hər ölkənin mətbuatını "öz dilində" oxumasından heyrətini gizlətməməsi təsdiq edir ki, ölkəmizdə mətbuata göstərilən həssas münasibət xatici mətbuatın da diqqət məkəzindədir və yüksək qiymətləndirilir. Cəsarətlə deyə bilərik ki, ölkəmizdə fikir, söz, məlumat azadlığı tam şəkildə təmin olunur və hazırda milli mətbuatımız özünün ən uğurlu, şəffaf fəaliyyət dövrünü yaşayır. Bütün sahələrdə olduğu kimi, mətbuatda da müşahidə edilən dinamik inkişaf gələcəkdə fikir, söz, məlumat azadlıqlarının daha üstün səviyyədə olacağına, milli mətbuatımızın daha şəffaf fəaliyyətinə əsaslı zəmin yaradır və ümidləri artırır.

***İnam HACIYEV***

***Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür***

# Əli Kərimli ilə Sevinc Osmanqızı kimi əxlaqsızlar çirkaba bulaşıblar

*Deyəndə ki, Əli Kərimli kimi satan və satılan əxlaqsız parazit yoxdur, başlayır erməni üzünü göstərməyə. Dünənə qədər Xədicəsi, sonra Gültəkini və... daha kimlər, onun ardınca isə, gəldi Sevinc Osmanqızı onun "Mat Tereza"sı hesab olundu. S.Osmanqızı özünü "müxalifətçi" kimi göstərmək üçün başladı Ə.Kərimlisayağı satqınlıq etməyə, daha doğrusu, satılmağa.*



Satılmağın da bir məqsədi qrantlar, evlər, villalar əldə etməkdir. Azərbaycanın üzləşdiyi ən ciddi problemlərindən də elə biri belə mənəviyyatsız və əxlaqsız müxalifətdir. Nə qədər paradoksal olsa da, onlar bilmirlər ki, ölkə hakimiyyəti normal, adekvat, ciddi və hadisələrə dərhal normal reaksiya verən müxalifət də maraqlıdır. Belə müxalifət hakimiyyəti sərt tənqid etməli, iqtidar mənsublarını diskussiyalara və debatlara çağırmalı, problemlərin həll yollarını təklif etməli, hakimiyyət təklifləri qəbul etməyəndə isə, xalqı etiraz aksiyalarına səsləyərək, iqtidara təzyiq göstərməlidir. Parlament də, hökumət də, hakimiyyət də belə müxalifətin iştirakı ilə formalaşmalıdır.

## Çirkaba bulaşmış Əli Kərimlinin "Mat Tereza"ları...

Amma sevinclər, xədicələr, gültəkinlər, leylalar və kimlər, kimlər... çirkaba bulaşmışlar. Hər biri ayrılıqda və hamısı birlikdə erməni qulbeçələri hər cür əxlaqsızlığa gedənlərdir. Belə canfəşanlıq edənlərin önündə AXCP sədri Ə.Kərimli ilə "Milli Şura"nın lideri C.Həsənli gedir və guya məmləkətin xilası onlardadır. Sifətlərinə yazılan yalanlar, böhtanlar, satqınçılıqlar, məntiqsizlik və iddiaların gerçək kimi qələmə verilməsidir. Xalq da bunu yaxşı görür. Hələ də korafəhmlik, perspektivsizlik və mitinqomaniyadan qurtula bilməyib özünü primitivlik çərçivəsində saxladığı üçün gerçək "Milli Şura"ya dönə bilməyən "Milli Şura", xüsusilə də, bu efemer qrupun "lider"i Cəmil Həsənli iddia edir ki, Azərbacanın bütün demokratik və sağlam qüvvələrini birləşdirirlər.

Absurddur. ABŞ-a sığınmış S.Osmanqızı da "YouTube" kanalında həmin "Nağıl danışan nənə" funksiyasını yerinə yetirməyə çalışır, səsinin tembrini bəhs etdiyi mövzudan asılı olaraq dəyişir, mitinqlərdən bəhs edəndə, vəcd notlarını bol edir, "hakimiyyətin əzab verdiyi xalq"dan danışanda, faciəvi çalarları seçir. Nə qədər alçaq, nə qədər mənəviyyatsızlıq...

Son dönəmlərdə siyasətçilik iddiasına düşmüş bu xanımın "ozan" verballığının qəhrəmanları arasında Tofiq Yaqublu kimi siyasətə atılıb, siyasətin atdığı fiqurlarla yanaşı, Ə.Kərimli ilə bir yer tutması da təəccüb doğurmur. Məsələn, AXCP lideri deyir ki, Sevinc Osmanqızı da səsləndirir ki, sən demə, Azərbaycan hakimiyyətinin son qərarları, fərmanlar, sərəncamlar, vətəndaşların rifah halının yüksəlməsinə və sosial sahədə islahatlara yönəlmiş bütün (!) addımlar yanvarın 19-da "Məhsul" stadionunda keçirilmiş "möhtəşəm" mitinqdən sonra "iqtidarın qorxuya düşməsinin nəticəsi" imiş. Təkrarlanma deyil bu fikir. Bəla ondadır ki, Ə.Kərimli bu marazmı sürəkli təkrarlayır, Avropa ölkələrindəki "müstəqil bloqer"lər də Sevinc Osmanqızı və digər siyasət liderləri ilə səs-səs verərək, AXCP liderini az qala Pasxa atasındakı bütə çevirirlər. Bax budur, onların alçaqlığı, əxlaqsızlığı. Çünki reallıq onlar üçün mənəviyyatlarını və əxlaqlarını qranta satmaqdır.

Bu satqın parazitlər anlamalıdırlar ki, xaricdən maliyyələşdiklərini, Azərbaycandan kənarda olanların göstəriş və əmrləri ilə davrandıqlarını var qüvvələri ilə təkzib etsələr də, yalan cidasını "YouTube" ilə "Facebook"dakı ikiüzlü çıxışların çuvalında gizlətmək mümkün deyil.

"Hakimiyyət Azərbaycan mediasını satın alıb" deyən Ə.Kərimlini "lider" kimi göstərən həmin media strukturları, "YouTube" kanalları və sosial şəbəkələrdəki profillər də satın alınıbsa, Ə.Kərimli nə üçün həmin qurumlara, şəxslərə istinad edir, onların vasitəsilə tirajlanır və onları da hakimiyyətə qarşı "mübarizə"də istifadə edərək, tirajlayır?

Onu da deyək ki, sosial bazasını, ictimai dəstəyini Azərbaycan xalqı arasında axtaran və siyasi perspektivini milli iradəyə bağlayan qüvvələrin də şahidi olmuşuq. Amma ölkənin taleyi xarici paytaxtlardakı qaranlıq kulislərdə qəbul ediləcək hansısa qərarların öhdəsinə buraxılmayıb və buraxılmayacaq da.

Bunu AXCP sədri Ə.Kərimli, çox gec olsa da, anlamalı, ya da anlamağa çalışmalıdır.

Naftalin qoxulu siyasətçilərin iddiaları böyük ola bilər, amma onlar, gerçəkdən də, çox cılızdır.

## <u>Siyavuş Novruzov:</u> "Əli Kərimli ilə Sevinc Osmanqızı iki bülbül kimi səs-səsə verib, islahatları fərqli formada çatdırmaq istəyirlər"

Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov deyib ki, yanvar ayından bu günə kimi, müxtəlif sahələrlə bağlı addımlar atılır və sosial problemlər həllini tapır: "Müxtəlif qüvvələr bu islahatları öz adlarına çıxır. Burada məqsəd hakimiyyəti bu islahatlardan çəkindirmək, ya da bu islahatları öz adına çıxmaqdır. Adi bir zəlzələ zamanı insanların dərdinə şərik çıxmaq əvəzinə, deyirlər ki, filan vaxt mitinq keçirəcəyik. Bir məqamı da qeyd edim. Hazırda uşaqpulu ilə bağlı qanunvericilik müddəaları hazırlanır, deyirlər ki, gəlin mitinq edək, sizə uşaqpulu verdirəcəyik. Ə.Kərimli ilə Sevinc Osmanqızı iki bülbül kimi səs-səsə verib, islahatları fərqli formada çatdırmaq istəyirlər".

Millət vəkili bildirib ki, Prezident xalqın maraqlarını həyata keçirir: "Atılan addımların heç biri xarici qüvvələrin təsiri ilə həyata keçirilmir. Sapı özündən olan baltaları başa düşürük. Azərbaycan dövləti Azərbaycan xalqının yanındadır. Deyirlər ki, niyə Prezident yanğında zərərçəkən insanlarla görüş keçirməyib. Prezidentin rayonda nümayəndəsi var, ilk gündə xalqla görüşdü. Ə.Kərimlinin evini su basmışdı, özü getmədi, Prezident getdi, 5 min ev tikdirdi. Zaqataladakı zəlzələdə mindən çox ev tikildi. Şamaxıda, Ağsuda da evlər tikilməyə başlanıb. Onların məsələlərə bu cür yanaşması onların erməni xislətindən irəli gələn məsələdir. Biz bu islahatları, atılan addımları cəmiyyətə düzgün çatdırmalıyıq".

**Rəfiqə HÜSEYNOVA**

# İşğalçı ölkəyə iqtisadi sanksiyalar tətbiq edilməlidir

*Siyasi şərhçilər yalnız bu halda, Ermənistanın işğala son qoyacağını bildirirlər. ATƏT-in Minsk Qrupunun həmsədrlərinin regiona növbəti səfəri planlaşdırılır. Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ABŞ görüşündən sonra bu səfərin Dağlıq Qarabağ münaqişəsinin həllinə hansısa bir təsiri olacağına ümidi varmı? Söhbət etdiyimiz müsahiblərimiz həmsədrlərin regiona səfərinin münaqişənin sülh yolu ilə həllinə təsiri olmayacağını və bunun da səbəbinin Ermənistanın konstruktiv siyasətdən uzaq olması ilə əlaqələndirdilər.*

## <u>Siyasi şərhçi Azər Həsrət:</u> "Bizə nəticə lazımdır "



- ATƏT-in Minsk Qrupu həmsədrlərinin danışıqlar prosesini intensivləşdirmək üçün atdıqları addımlar, əlbəttə, faydalıdır. Lakin bu intensivliyin nəticə verəcəyi təqdirdə, uğur qazanıla bilər. Ona görə də, budəfəki səfərin, məhz fayda vermə istiqamətində bir addım olmasını arzu edərdik. Çünki bu vaxta kimi olan səfərlər, danışıqlar və görüşlər heç bir gerçək nəticə verməyib. Ona görə də, indiki səfərlə bağlı çox da ümidli deyiləm. Lakin yenə də arzu edərdik ki, artıq nəticəsiz danışıqlar mərhələsindən real nəticəli təmaslar mərhələsinə keçək. Bu işin istər ATƏT-in Minsk Qrupu, istərsə də münaqişə tərəfləri olan Ermənistanla Azərbaycanın öz səyləri nəticəsində baş tutması isə, sadəcə, təfərrüatdır. Bizə nəticə lazımdır.

## <u>Politoloq Elşad Mirbəşiroğlu:</u> "Həmsədrlərin regiona səfərləri mahiyyət etibarilə əvvəlkilərdən fərqlənməyəcək"



-Vaşinqtonda görüş zamanı xarici işlər nazirləri müzakirələrin davam etdirilməsi haqqında həmrəy olduqlarını bildirmişlər. Lakin görüş ərəfəsində Ermənistanın təxribatlara əl atması, sübut etdi ki, o, konstruktiv mövqe nümayiş etdirmək fikrindən uzaqdır. Həqiqətən də, görüş zamanı əsas məsələdən daha çox, təmas xəttində atəşkəs rejiminin gözlənilməsinin vacibliyi oldu. Ermənistanın istədiyi də, elə bu idi. Yəni diqqət əsas məsələdən yayınsın, status-kvo vəziyyəti dəyişməz qalsın. Bu baxımdan, hesab edirəm ki, ATƏT-in Minsk Qrupunun regiona səfəri, həmişə olduğu kimi, Ermənistanın mövqeyində hər hansı bir dəyişikliyin baş verməditi bir şəraitdə baş tutur. Nəzərə almaq lazımdır ki, Ermənistanın xarici işlər naziri Mnatsakanyanın qondarma "DQR"ə səfəri haqqında Ermənistan mediasında xəbərlər getmişdir. Əlavə olaraq, Mnatsakanyan müzakirələri davam etdirəcəklərini, lakin güzəştə getməyəcəklərini səsləndirdiyi də qeyd olunur. Bütün bunların fonunda, qeyd etmək olar ki, ATƏT-in Minsk Qrupunun regiona növbəti səfəri bu günə qədər baş tutmuş səfərlərdən mahiyyət etibarilə fərqlənməyəcəkdir.

**GÜLYANƏ**

# <u>Politoloqlar:</u> Ermənistanın iqtidar partiyası daxili çəkişmələrlə çalxalanacaq

*Ermənistan politoloqları hesab edirlər ki, yaxın vaxtlarda Ermənistanın iqtidar partiyası daxili çəkişmələrlə çalxalanacaq . Onların sözlərinə görə, bir tərəfdən iqtidarda olan "Vətəndaş müqaviləsi" partiyasında vəzifələr uğrunda çəkişmələr güclənib, digər tərəfdən isə baş nazir, partiyanın sədri Nikol Paşinyanın ətrafındakı insanların peşəkarlığına görə deyil, sadiqlik prinsipi üzrə seçilməsi ciddi fəsadlar yaradacaq.*



AZƏRTAC erməni KİV-nə istinadla xəbər verir ki, politoloq Armen Badalyan bu yaxınlarda Kotayk vilayətində Sasun Mikaelyan və Romanos Petrosyan arasında hakimiyyət uğrunda mübarizəni misal gətirib. Onun sözlərinə görə, "əvvəllər siyasətdən və ideologiyadan uzaq və yalnız vəzifə bölgüsü ilə məşğul olan Respublikaçılar partiyasının yerini Paşinyanın partiyası tutub". Ekspert hesab edir ki, öncəki iqtidar partiyası kriminal oliqarxiyanın "siyasi dizaynı" idi, indiki partiya isə Paşinyanın ətrafındakı adamların vəzifə uğrunda çəkişməsi üzrə "siyasi dizayn"dır. Politoloq əlavə edib ki, əgər demokratik ölkələrdə partiyalardakı qruplaşmalar ideoloji əsaslarda formalaşırsa, məsələn, liberal və ya mühafizəkar prinsipləri üzrə, Ermənistanda isə ideologiyadan kənar və liderə yaxın olmaq əsas götürülür. O əlavə edib ki, bu yaxınlarda dövlət nəzarət xidmətinin başçısı David Sanasaryanla səhiyyə naziri Arsen Torosyan arasında düşmənçilik həddinə çatan mübarizə də buna əyani misaldır. Ekspert bu çəkişmələrin iqtidar partiyasını və son nəticədə dövləti zəifləyəcəyini vurğulayıb.

Politoloqlar Paşinyanın partiyasının fəal üzvlərindən biri olan Anna Marqaryanın obyektiv mülahizələrinə görə təqib olunmasını da iqtidarın gələcək problemlərinin əlaməti kimi qiymətləndirirlər. Onların fikrincə, bu fakt Ermənistan hökumətində islahatların arxa plana keçdiyini, əsas meyarın kadrların peşəkarlığı deyil, şəxsi sədaqət prinsipi olduğunu göstərir.

# Cənubi Amerika, Asiya, Sakit okean və Avropa ölkələrində erkən evlilik

***Latın Amerikası və Karib hövzəsində erkən evliliklərin səviyyəsi yüksəkdir. UNİCEF-in məlumatlarına görə, bu regionda 18 yaşadək qızların 28%-i ərdədir. Onlardan 5%-i 15 yaşadək olan evli qızlardır. Yəni regionda hər 18 yaşadək olan 4 qızdan biri evlidir. Dominikan Respublikası (36%), Braziliya (36%), Meksika (26%), Nikaraqua (41%), Honduras (34%) və Qvatemala (30 %) ərazilərində erkən evlilik daha çox əyalətlərdə yaşayan yoxsul əhali arasında geniş yayılıb.***

R.Məmmədovun fikrincə, bu regionda erkən evliliklərin geniş yayılmasının səbəbləri aşağıdakılardır:

- Əyalətlərdə mövcud olan ictimai qınaq, ictimai şüurda erkən ərə getməklə bağlı olan ənənəvi stereotiplər, qızların 18 yaşadək ərə verilməsinə təhrik edir.

- Bu stereotiplərin təməlində patriarxal ənənələr, həm də katolikliyin erkən evliliyə münasibəti (qızlar üçün 14, oğlanlar üçün 16) dayanır. Cənubi Amerikada katolikliyin geniş yayılması, onun erkən evliliklərlə bağlı qərarlarının yayılmasına şərait yaradır.

- Erkən evliliyin leqallaşdırılması. Burada hüquq orqanlarının oğlanların 16, qızların 15 və daha aşağı yaş qruplarında evlənmələrinə məhdudiyyətlər qoymur. Qeyri-rəsmi evliliklərdə isə, qızların yaş həddinin daha aşağı olduğu hallar da geniş yayılmışdır.

- Bu regionda qızların əksəriyyəti öz həmyaşıdlarına deyil, özlərindən ən az 5 yaş böyük olan, eyni zamanda, həyat təcrübəsi, məsuliyyəti, iqtisadi müstəqilliyi olan kişilərə üstünlük verirlər. Digər tərəfdən, kişilərin təqribən yarısı 18 yaşadək qızların daha çox "itaətkar" və "uyğunlaşa bilən" olduqlarını bildirirlər.

- Bu regionda qızların erkən cinsi fəaliyyəti, cinsi maariflənmənin və reproduktiv sağlamlıq xidmətlərinin zəif olması yeniyetmə hamiləliklərə yol açır. Qızlar 18 yaşadək bir və iki hamiləlik keçirirlər. Onların, tibbi xidmətlərin aşağı səviyyədə olduğu şərtlərdə abort etdirmələri təhlükəlidir. Buna görə də, onların ailələri və cəmiyyətin qınağı qızların erkən ərə getmələrinə səbəb olur.

Cənubi Asiya ölkələri, qızların 18 yaşadək evlilik səviyyəsinə görə, dünyada öndə gedirlər. Regionda erkən evlilik səviyyəsinin ən yüksək olduğu ölkələrə Banqladeş (59%), Nepal (37%), Əfqanıstan (35%) və Hindistan (27%) aiddir.

Şərqi Asiya və Sakit okean bölgələrindəki qızların 15%-i 18 yaşadək, 2%-i 15 yaşadək ərə gedirlər. Regionda 18 yaşadək erkən evlilik səviyyəsinin ən yüksək olduğu ölkələrə Vanuatu (21%), İndoneziya (14%), Vyetnam (11%) aiddir.

Hindistan və Nepalda oğlan və qızların erkən evliliyini adət kimi qəbul edən qəbilələr çoxdur. Burada qız 18 yaşını keçəndə, valideynləri ictimai qınağa məruz qalır və bunun üçün, onu təzliklə 15 yaşadək ərə verməyə çalışırlar. Əslən, hind mənşəli olan və dünyanın müxtəlif yerlərində yaşayan köçəri qaraçı-romanlar 18-19 yaşına çatan qızlara qarımış qız kimi baxırlar. Bu stereotiplər, qızların erkən ərə verilməsinə səbəb olur. Onlarda, həmçinin, oğlanların da kiçik yaşda evləndirilmələri adəti geniş yayılıb.

Əfqanıstan və Pakistanda da qızların çox erkən yaşlarda ərə verilməsi adəti geniş yayılıb. UNİCEF-in məlumatlarına görə, Əfqanıstanda 18 yaşadək evli qızlar 35%, 15 yaşadək evli qızlar 9% təşkil edir. Pakistanda isə, 18 yaşadək evli qızlar 21%, 15 yaşadək evli qızlar 3%-dir. Onlar arasında 8-13 yaşında olan evliliklər də var.

R.Məmmədov yazır: "Azyaşlı qızların ataları tərəfindən müəyyən edilən "başlıq" qarşılığında satılması adəti bu regionlarda geniş yayılmışdır Bu erkən evliliklərin əsasında maddi marağın və yoxsulluğun olduğunu göstərir.

Bu regionda erkən evliliklərin geniş yayılması səbəbləri aşağıdakılardır:

- Gender bərabərsizliyi;
- Cəmiyyətdə qızların sosial dəyərə malik olmaması;
- Qızların təhsil və ya məşğulluq imkanlarının məhdudluğu.
- Qadınları yalnız ana olmağa və reproduktiv ev işlərinə cəlb etməyi təhrik edən patriarxal dəyərlər;
- Cinsi zorakılığa məruz qalmaq təhlükəsi;
- Yoxsulluq.

Son dövrdə beynəlxalq təşkilatların yardımı ilə Cənubi Asiyada 18 yaşadək erkən evlilik səviyyəsi 50%-dən 30%-ə düşmüşdür. Bu, Şərqi Asiya və Sakit okean bölgələrində də müşahidə olunur.

Avropa və MDB ölkələrində erkən evlilik səviyyəsi digər regionlarla müqayisədə çox aşağıdır. Çünki bu region, dünyanın bir çox regionlarından fərqli olaraq, modernləşmə və gender bərabərliyi tarixi prosesini bu və ya digər dərəcədə keçmişdir. Bu tarixi prosesi keçid səviyyəsinə görə, regionun və dünyanın bəzi ölkələrini bir-birindən fərqləndirmək olar. Xüsusilə, Qərbi Avropa ölkələri, Yaponiya, ABŞ kimi dövlətlər digərlərindən kəskin şəkildə fərqlənirlər. Postsosialist məkana aid olan Şərqi Avropa və MDB dövlətləri, onlardan qismən geri qalırlar."

UNİCEF-in məlumatlarına görə, Mərkəzi-Şərqi Avropa və MDB regionunda 18 yaşadək qızların 11%-i, 15 yaşadək qızların 1%-i ərdədirlər, Bu regionda, erkən evliliklərin səviyyəsi, modernləşmə və gender bərabərliyi səviyyəsinə adekvatdır. Bu coğrafiyanın əksər hissəsinin uzun müddət SSRİ-nin tərkibində və ya onun təsir dairəsində olması, sonradan qloballaşma prosesləri ilə bağlı kapitalizmə keçid etməsi, bu ərazidə olan xalqların oxşar problemlər yaşamalarına səbəb oldu. Lakin hər bir xalqın keçdiyi fərqli sosial-mədəni tarixi təkamül prosesləri və əldə etdiyi sosial dəyərlər sistemi, onların problemlərinin xarakter və istiqamətlərini də bir-birindən fərqləndirir.

Postsovet ölkələri (MDB) də erkən evlilik səviyyəsinə görə, Mərkəzi və Şərqi Avropa ölkələrinə (MŞA) yaxındır (1%). Çünki SSRİ-də ümumi yetkinlik yaşı 18 yaş elan edilmiş və bu qanunun yerinə yetirilməsinə ciddi nəzarət edilmişdir. Lakin SSRİ-nin süqutundan sonra baş verən qlobal proseslər zəminində erkən evlilik halları artmışdır.

UNİCEF tərəfindən aparılan araşdırmalar tam və dəqiq statistikanın ortaya çıxmasını təmin edə bilmir. Məsələn, bəzi ölkələrdə erkən evliliklərlə bağlı məlumatlar ya tam gerçəkliyi əks etdirmir, ya da onlar barədə heç bir məlumat yoxdur (biz onu cədvəldə "-" işarəsi ilə qeyd etmişik).

UNİCEF-in məlumatlarına görə, erkən evliliklərdə dini və etnik amillər də mühüm rol oynayır. Məsələn, Ermənistanda 18 yaşadək evliliklər arasında yezidi kürdlərinin, Gürcüstanda Asiya və Kvemo-Kartli bölgəsinin böyük payı olduğu bildirilir.

Əksər Avropa ölkələrinin qanunvericiliyində hər iki cins üçün yetkinlik yaşı 18-dir. Lakin bəzi Avropa ölkələrinin qanunvericiliyində bu yaş həddi bəzi istisna hallar üçün 16-dır. Böyük Britaniya, Kanada, ABŞ qanunvericiliyində 16 yaşadək nikah qadağan olunmuşdur. Ancaq 16-17 yaşında valideynlərin razılığı (Şotlandiyada razılığı olmadan) və məhkəmənin qərarı ilə nikah bağlana bilər.

Vatikanın qərarı ilə qızlar üçün evlilik yaşı 14, oğlanlar üçün 16-dır. Avropada katolik məzhəbində olan bir çox ölkə və icmalar Vatikanın bu qərarına riayət etməyə çalışırlar. Məsələn, İspaniyada yalnız 2015-ci ildə qızlar üçün nikah yaşı 14-dən 16-ya qaldırıldı. Cənubi Amerika ölkələri katolikliyin ən geniş yayıldığı ərazilərdir. Biz bu regionda olan bir çox dövlətlərin qanunvericiliyinə diqqət yetirəndə, görürük ki, onlarda qızlar üçün nikah yaşı 14, oğlanlar üçün 16-dır.

Ümumiyyətlə, Avropa və ABŞ-da erkən evlilik qanunla yasaq olunsa da, qeyri-rəsmi şəkildə bu cür hallara təsadüf olunur. Məsələn, musiqiçi Cerri Li Lyus 13 yaşlı əmisi qızı ilə evlənmişdir. Bundan əlavə, Avropa ölkələrinə II Dünya Müharibəsində sonra Afrika və Asiyadan gələn immiqrantlar arasında erkən evlilik halları geniş yayılmışdır. Avropa ölkələrinin qanunvericiliyi bunun qarşısını ala bilmir. Multikulturalizm siyasətinin həyata keçirilməsi isə, sosial-mədəni qrupların kültür fərqlərinə tolerant yanaşmanı dəstəkləyir. Bu yanaşma, yaxın gələcəkdə Avropada erkən evliliklərin artacağını göstərir. Çünki immiqrantların təbii artım səviyyəsi, yaxın 20-30 ildə Avropada immiqrant əhalinin yerli əhalidən çox olacağını proqnozlaşdırır.

BMT-nin gender bərabərliyi ilə bağlı həyata keçirdiyi qlobal siyasətin nəticəsi kimi, erkən evlilik səviyyəsi dünyada tədricən azalır.

1970-2008-ci illərdə dünyada 78 ölkə arasında aparılan araşdırmalara görə, 15-19 yaşarası erkən evlənmə tendensiyası azalmağa doğru gedir. 1970-1979-cu illərdə dünyada erkən evlilik səviyyəsi 13,4% idisə, 2000-2008-ci illərdə 6% olmuşdur. İnkişaf etmiş ölkələrdə erkən evlilik 6,1%-dən (İsveç, Yaponiya və İrlandiyada 2%-dən) 0,8 %-ə enmişdir (ABŞ-da 5% olmuş). Çin, Sinqapur, Cənubi Koreya kimi ölkələrdə də erkən evlilik səviyyəsi aşağıdır. Bu ölkələrdə 1970-1979-cu illərdə erkən evlilik 5% idisə, 2000-2008-illərdə 2% olmuşdur. Hindistanda erkən evlilik səviyyəsi 57 faiz idisə, 2000-2008-ci illərdə 28 faiz olmuşdur.

Yaşayış və təhsil səviyyəsi yüksək olan ABŞ-da 15-19 yaş qrupundakı qız uşaqlarının erkən evliliyi 4%, İngiltərədə 2%, digər Qərbi Avropa ölkələrində də çox aşağı faizlər təşkil edir. Araşdırmalar göstərir ki, bu göstəricilər, əsasən, həmin ölkələrdə olan yoxsul immiqrantlar arasında yayılmışdır. Bu faktlar ölkələrin rifah, sosial ədalət, gender bərabərliyi və təhsil səviyyələri ilə evlənmə yaşı arasındakı əlaqənin olduğunu ortaya qoyur.

Həqiqətən də, erkən evliliklərin yayıldığı ölkələrdə dərin sosial-iqtisadi (yoxsullq, işsizlik), hüquqi (qadınların mülkiyyət, təhsil və digər hüquqlarının olmaması) və təhsil problemlərinin olduğu müşahidə olunur. Bu evliliklər, adətən, sivilizasiyadan kənarda olan və ciddi sosial-iqtisadi, hüquqi və təhsil problemləri ilə üzləşən kənd yerlərində yaşayan ailələrdə baş verir. Erkən evliliyin yayıldığı əksər münaqişələrin olduğu, terrorizmin artdığı və müstəmləkəçilik siyasətinin, nəticəsi olaraq, sosial-iqtisadi, hüquqi və təhsil problemlərinin acınacaqlı duruma düşməsi halları müşahidə olunur. Əgər Afrika, Asiya və Cənubi Amerika ölkələrində yaşayış, hüquq və təhsil səviyyəsi yüksəlsə, gender bərabərliyi və modernləşmə təmin olunsa, orada da, erkən evliliklərin azalması ehtimal edə bilərikmi?

Bu suala cavab vermək üçün, erkən evlilik problemini həm üfüqi, həm də şaquli istiqamətlərdə araşdırmaq lazımdır. Yəni problemin mövcud mənzərəsinin səbəblərini və onun tarixi köklərini ortaya qoymaq zəruridir (bax: "Erkən evlilik: səbəb və nəticələr").

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

**səs**

Son səhifə 5 iyul



# YAP Pirallahı rayon təşkilatı gənclər birliyi “Aztəminatlı ailələrə qayğı” aksiyasına qoşuldu



***YAP Pirallahı rayon təşkilatı gənclər birliyinin üzvləri Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə həyata keçirilən “Aztəminatlı ailələrə qayğı” aksiyasına qoşularaq, rayon ərazisində yaşayan imkansız ailələrə sovqat paylayıblar. Aksiyada iştirak edən YAP Pirallahı rayon təşkilatı gənclər birliyinin sədri Rüfət Əhmədov, sədrin müavini Elturan Həşimov və partiyanın digər fəalları tərtib olunan siyahı üzrə aztəminatlı ailələrə baş çəkərək, onların problemləri ilə yaxından tanış olublar.***

R.Əhmədov bildirib ki, ölkənin ictimai-siyasi həyatında aparıcı rola malik olan Yeni Azərbaycan Partiyası tərəfindən, mütəmadi olaraq, əlamətdar günlərdə aztəminatlı ailələrə sovqatlar paylanılır, bayram süfrələri açılır, sosial yardıma ehtiyacı olan şəxslərlə bağlı müxtəlif layihələr reallaşdırılır. Partiyanın ənənəsinə sadiq qalmaq biz gənclərin borcudur. Hər il olduğu kimi, bu il də YAP Pirallahı rayon təşkilatının gənclər birliyi dövlətin aztəminatlı ailələr üzrə həyata keçirdiyi sosial siyasətə öz töhfəsini verməklə, rayon ərazisində yaşayan imkansız ailələrlə görüşməyi qərara aldı, qayğıya ehtiyacı olan şəxslərə dəstək göstərdi. Həyata keçirilən bu cür layihələr vətəndaşların sosial rifahının yüksəldilməsinə töhfə verməklə yanaşı, onların qayğı ilə əhatələnməsi, əlamətdar günlərdə aztəminatlı ailələrə bayram əhval-ruhiyyəsi yaşatmaq məqsədi daşıyır.

***R.NURƏDDİNOĞLU***

## ELAN

**“Nar” abunəçilərinin nəzərinə!**

01.08.2019-cu il tarixindən etibarən, Nar-ın korporativ müştəriləri üçün “Buraxılmış zəng” xidməti ödənişli olacaqdır. Daha ətraflı məlumatı www.nar.az saytından əldə edə bilərsiniz.

# Avropa Gənclər Yay Olimpiya Festivalının yeni “Ulduz səfirləri” elan edilib

İyulun 21-də “Baku Crystall Hall”da keçiriləcək möhtəşəm açılış mərasimi ilə start götürəcək XV Avropa Gənclər Yay Olimpiya Festivalının başlanmasına iki həftədən bir qədər çox vaxt qalıb. Dörd minə yaxın idmançı, texniki heyət və digər qonaqların qatılacaqları festival 14-18 yaşlı yeniyetmələr arasında keçirilən və Avropada böyük maraqla izlənilən idman yarışlarındandır.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yarışların keçirilməsinə 3500 könüllü cəlb olunub. Onlarla bağlı təşkil olunan təlimlər başa çatmaq üzrədir. Könüllülər Atletlər Kəndində, hava limanında, bütün idman məkanlarında müxtəlif funksiyaları yerinə yetirəcək, yarışları izləmək üçün ölkəmizə gələcək turistlərə lazımi məlumatlar verəcəklər.

Könüllülərlə bağlı həm də yaxın günlərdə “EYOF Bakı 2019” günü Gəncədə” adlı maraqlı konsert proqramından ibarət tədbirin də keçirilməsi planlaşdırılır. Azərbaycanlı incəsənət ustaları Nadir Qafarzadə və Elton Hüseynəliyev “Könüllülərin ulduz səfiri” elan ediliblər. Bundan əvvəl Mirələm Mirələmov, Kamilə Nəbiyeva, Leyla Cəmil, Tofiq Hacıyev və məşhur aparıcı Hacı Nuran da Festival könüllülərinin “Ulduz səfirləri” elan olunublar. Onlar Festivala hazırlıq və yarışlar vaxtı ölkəmizin, idmanın, vətənpərvərliyin təbliği ilə könüllü məşğul olacaq və gənclərin qatıldıqları tədbirlərdə fəal iştirak edəcəklər.

Azərbaycan həmişə olduğu kimi, bu tədbirə də xüsusi maraqla hazırlaşır. Yalnız yerli mütəxəssislərdən ibarət əməliyyat qrupu bütün idman məkanlarında yoxlama işləri aparıb. Hazırlıq işləri artıq başa çatdırılmaqdadır. Atletlər Kəndi də tam hazır vəziyyətdədir. On iki yarış məkanı iyulun 21-27-də qapılarını bütün idmansevənlər üçün açacaq. Festivalda idman yarışlarını izləmək üçün biletlər pulsuzdur. Hər bir şəxs şəxsiyyət vəsiqəsi ilə dörd bilet əldə edə bilər. Bu imtiyaz şagirdlərə də şamil olunur. İdman müəllimləri isə Festivalın Əməliyyat Komitəsinə müraciət edərək daha çox bilet ala bilərlər.



# Frenk Lampard “Çelsi”nin baş məşqçisi oldu

Futbol üzrə İngiltərə millisinin və “Çelsi” klubunun sabiq yarımmüdafiəçisi Frenk Lampard London təmsilçisinin baş məşqçisi vəzifəsinə təyin edilib. Beş il əvvəl “Çelsi”dən ayrılan 41 yaşlı F.Lampard bu klubun tarixində ən məhsuldar futbolçu olub. “Zadəganlar”ın heyətində çıxış etdiyi 2001-2014-cü illərdə 211 qol vuran F.Lampard bu müddətdə UEFA Çempionlar Liqasının, üç dəfə Premyer Liqanın və dörd dəfə FA Kuboku turnirinin qalibi adını qazanıb.

F.Lampard məşqçilik karyerasına İngiltərənin ikinci liqasında - Çempionşipdə çıxış edən “Derbi Kaunti” komandasını çalışdırmaqla başlayıb. Klub onun rəhbərliyi ilə Premyer Liqaya yüksəlmək üçün təsnifat mərhələsinə vəsiqə qazansa da, bu şansı əldən vermişdi. Xatırladaq ki, “Çelsi” klubunu 2016-cı ildən çalışdıran italiyalı Maurizio Sarri “Yuventus” ilə müqavilə bağlayıb.

# “Mançester Siti” “Atletiko”nun futbolçusu üçün 70 milyon avro ödəyib

“Atletiko Madrid” futbol klubunun yarımmüdafiəçisi Rodriqo Hernandes İngiltərənin “Mançester Siti” komandasına transfer olunub. “Şəhərlilər” 23 yaşlı ispaniyalı yarımmüdafiəçi üçün 70 milyon avro ödəyiblər. R.Hernandes ötən mövsüm “Atletiko Madrid”in heyətində 47 oyunda 3 qol vurub və bir məhsuldar ötürmə verib.

Xatırladaq ki, R.Hernandes 2018-ci ilin yayında “Villarreal”dan Madrid təmsilçisinə 20 milyon avroya transfer edilib.



Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600